# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 sentyabr 2026-cı il, cümə axşamı
№ 173 (7240)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident əfv sərəncamı imzalayıb



Bax səh. 2



# Yeni sənaye quruculuğunun yol xəritəsi

## “Dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı” qeyri-neft iqtisadiyyatının inkişafında yeni mərhələ açacaq

Bax səh. 2

# Vətən müharibəsinə 3 gün qalırdı...

Bax səh. 3

## Qlobal təhlükəsizliyin yeni çağırışları: Bakı dialoq və əməkdaşlıq platforması kimi



Bax səh. 3

## BMT Baş Assambleyasının 81-ci sessiyasında...

### Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevdən sitat gətirdi

Bax səh. 4

## Uçot dərəcəsi sabit saxlanılıb



Bax səh. 5

## Transxəzər Nəqliyyat Dəhlizi artıq reallıqdır

Sentyabrın 22-də Pekində “Qlobal Dayanıqlı Nəqliyyat Forumu - 2026” çərçivəsində Trans-xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə Yüksəksəviyyəli görüş keçirilib. Çin, Qazaxıstan, Türkiyə və digər ölkələrin hökumət heyətlərinin qatıldığı tədbirdə Azərbaycanı Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib. Beynəlxalq Nəqliyyat Forumunun Baş katibi Yanq Te Kim bildirib ki, “Kəmər və Yol” təşəbbüsü regionda siyasi və iqtisadi dialoqun möhkəmlənməsi, çoxşaxəli infrastrukturların əlaqələndirilməsi, ticarətin genişləndirilməsi və xalqların rifahının yaxşılaşması kimi elan edilmiş prioritetlərə çatmaqda mühüm rol oynamaqdadır...

Bax səh. 5

## BMT Baş katibindən çağırış...

### Antonio Quterreş növbəti dəfə islahatların zəruriliyini bəyan edib

BMT Baş Assambleyasının 81-ci sessiyasında təşkilatın Baş katibi Antonio Quterreş növbəti dəfə islahatların zəruriliyini bəyan edib. O, sessiyanın ümumi müzakirələrinin açılışındakı çıxışında deyib ki, Afrikanın daimi üzvlə təmsil olunmadığı BMT Təhlükəsizlik Şurasının hazırkı strukturu ədalətsiz və qəbuledilməzdir: “Afrikanın daimi təmsil olunmadığı XXI əsr Təhlükəsizlik Şurası, sadəcə, köhnəlmiş deyil, həm də ədalətsiz və müdafiəolunmazdır”.

Onun sözlərinə görə, şəbəkələşmiş gələcəyin qurulması, xüsusilə super dövlətlərin öz güclərinin o qədər də çox olmadığını və müəyyən hədlərin mövcudluğunu qəbul etməsi ilə başlayır. “Son illərin hadisələri bunu açıq şəkildə göstərdi. Hərbi güc təklikdə sülhü təmin edə, iqtisadi güc sabitliyi...

Bax səh. 6

## Vaşinqton Qrenlandiya ilə bağlı məqsədlərinə çatdı

BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Qrenlandiya ilə bağlı vacib addım atılıb. Belə ki, ABŞ Prezidenti Donald Tramp, Danimarkanın Baş naziri Mette Frederiksen və Qrenlandiyanın Baş naziri Yens-Frederik Nilsen tərəfindən adanın təhlükəsizliyinə dair yeni saziş imzalanıb. Razılaşma Arktikada təhlükəsizliyin gücləndirilməsini və ABŞ-ın Qrenlandiyadakı hərbi imkanlarının genişləndirilməsini nəzərdə tutur. Tramp saziş çərçivəsində Qrenlandiyada ABŞ-ın yeni iki böyük hərbi bazasının yaradılacağını bildirib. Danimarka və Qrenlandiya tərəfi razılaşmanın Danimarkanın suverenliyinə, eləcə də Qrenlandiyanın öz müqəddəratını təyinetmə hüququna təsir etmədiyini vurğulayıb...

Bax səh. 6

# Şimalda buzlar yox, maraqlar toqquşacaq...



Bax səh. 7

# Prezident əfv sərəncamı imzalayıb



**Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.**

**Sərəncamda məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslandığı qeyd edilib.**

**Sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 19 şəxs, azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş bir nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib.**

# Prezident İlham Əliyev Estoniyanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tiina Nirki qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Estoniya arasında əməkdaşlığın genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların önəminə toxundu.

Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bu xüsusda Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın ölkəmizə builki səfərlərini qeyd etdi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Estoniyanın Azərbaycana ilk səfiri təyin olunmasından şərəf hissi duyduğunu deyən Tiina Nirk ölkələrimiz, həmçinin Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişafı üçün səylə çalışacağını vurğuladı.

Azərbaycanın Orta Dəhlizdə mühüm mövqedə yerləşdiyini qeyd edən səfir bir çox sahədə, o cümlədən siyasi dialoq, biznes, informasiya texnologiyaları, logistika və digər istiqamətlər üzrə tərəfdaşlığı genişləndirmək üçün yaxşı potensialın olduğunu dedi.

Tiina Nirk təhsil sahəsində də əməkdaşlıq baxımından geniş imkanlara toxunaraq, bu xüsusda 200-ə yaxın azərbaycanlı tələbənin Estoniyada təhsil aldığını qeyd etdi.

Səfir, həmçinin Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımları yüksək qiymətləndirdi.

Görüşdə Estoniyanın Azərbaycanda səfirliyinin açılmasının ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsinə mühüm töhfə verəcəyi vurğulandı, iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunuldu və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# İsveçin Azərbaycanda yeni təyin olunmuş səfiri Prezident İlham Əliyevin qəbulunda



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də İsveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Morsinqi qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Növbəti illərdə də ikitərəfli münasibətlərimizin uğurlu inkişafının davam edəcəyinə və yeni əməkdaşlıq sahələrinin müəyyənləşdiriləcəyinə ümidvar olduğunu deyən dövlətimizin başçısı bu xüsusda müxtəlif səviyyələrdə qarşılıqlı səfər və görüşlərin önəminə toxundu, investisiya, ticarət, biznes sahələrində tərəfdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev səfirə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən səfir ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi üçün səylə çalışacağını vurğuladı.

Səfir Prezident İlham Əliyevə Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Həmçinin iki ölkə arasında etimadın qurulması istiqamətində atılan addımları alqışladığını bildirdi.

İsveçdə çoxlu sayda azərbaycanlı tələbənin təhsil aldığını və onların təhsil səviyyəsinin yüksək qiymətləndirildiyini deyən səfir tələbələrin gələcəkdə fəaliyyətləri dövründə Azərbaycan-İsveç əlaqələrinin inkişafına töhfə verəcəklərinə ümidvarlığını ifadə etdi.

Luis Morsinq Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərdəki müsbət dinamikaya da toxundu və bu xüsusda ikitərəfli saziş üzrə danışıqların bərpa olunduğunu vurğuladı.

Səfir Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımları yüksək dəyərləndirdi.

Azərbaycanla Ermənistan arasında sülh prosesinə toxunan Prezident İlham Əliyev sülh gündəliyinin təşəbbüskarının və müəllifinin məhz Azərbaycan olduğunu dedi, iki ölkə arasında əldə edilən sülhü dünyada presedenti olmayan bir hal kimi qiymətləndirdi.

Azərbaycan-Avropa İttifaqı münasibətlərinin hazırda çox yaxşı olduğunu bildirən dövlətimizin başçısı bu il Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın ölkəmizə səfərlərini, həmçinin onlarla beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşləri xatırladı.

Görüşdə Azərbaycanla İsveç arasında münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# Yeni sənaye quruculuğunun yol xəritəsi

## "Dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" qeyri-neft iqtisadiyyatının inkişafında yeni mərhələ açacaq



Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirədə ölkə iqtisadiyyatı üçün çox perspektivli sahə olan dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair mühüm məsələlər müzakirə olundu. Dövlət başçısının vurğuladığı kimi ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət daşıyan və olduqca perspektivli sahə hesab edilən dağ-mədən sənayesi gələcək iqtisadi inkişafın əsas təməllərini təşkil edir.

**Qlobal rəqabətdən kənarda qalmamaq üçün...**

Müasir qlobal iqtisadiyyat "yaşıl enerji"yə keçid, rəqəmsallaşma, yüksək texnologiyalı sənayenin sürətli inkişafı, təchizat zəncirlərinin yenidən formalaşması və iqtisadi təhlükəsizlik amillərinin güclənməsi ilə xarakterizə olunur. Bu proseslər qara, əlvan və qiymətli metalların, habelə strateji əhəmiyyətli mineralların qlobal iqtisadiyyat və sənaye üçün vacibliyini daha da artırır. Xüsusilə, bərpaolunan enerji mənbələri, elektrikli nəqliyyat, enerji saxlama sistemləri, yarımkeçiricilər, süni intellekt infrastrukturu və müdafiə sənayesinin inkişafı sözügedən resurslara qlobal tələbin uzunmüddətli artmasını şərtləndirən əsas amillərdən biridir. Məhz bu reallıqlar fonunda dünya ölkələrinin sənaye siyasətində mineral ehtiyatların hasilatı ilə yanaşı, onların emalına və yüksək əlavə dəyər yaradan məhsulların istehsalına da diqqət artmışdır. Əlavə dəyər zəncirinin ölkə daxilində formalaşması, istehsalın rəqəmsallaşması, resurs və enerji səmərəliliyinin artırılması, aşağı karbon emissiyalı texnologiyalara keçid metallurgiya sənayesinin əsas inkişaf istiqamətlərinə çevrilib.

Beynəlxalq təcrübə göstərir ki, dağ-mədən sektorunun rəqabət qabiliyyəti və iqtisadi səmərəliliyi yalnız mineral ehtiyatların hasilatı ilə deyil, onların dərin emalı, yüksək əlavə dəyər yaradan məhsulların istehsalı və qlobal dəyər zəncirlərinə inteqrasiyası ilə müəyyən olunur. Bu baxımdan Çin Xalq Respublikası strateji əhəmiyyətli mineralların emalı üzrə qlobal lider mövqe qazanıb, Avropa İttifaqı strateji xammalın hasilatını, emalı və təkrar emalını prioritet istiqamət kimi müəyyən edib, Kanada və Avstraliya strateji əhəmiyyətli mineralların inkişafı üzrə milli strategiyaları təsdiqləyib. Həmin ölkələrin strateji məqsədi ölkədaxili metallurgiya və emal sənayesinin sürətli inkişafını təmin etmək, beynəlxalq bazarlara inteqrasiyanı dərinləşdirməkdir.

**Ölkəmizin zəngin təbii resursları isə yüksək dəyər yaratmaq üçün böyük imkanlar yaradır. Eyni zamanda, enerji imkanlarımız və nəqliyyat infrastrukturumuz bu prosesdə regionun sənaye mərkəzinə çevrilməyi şərtləndirir**

**Mövcud iqtisadi şərait sənayeləşmənin yeni dövrünü tələb edir**

Azərbaycan da bu proseslərdən kənarda qala bilməz, mövcud iqtisadi şərait mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında istehsal əlaqələrinin gücləndirilməsi, infrastruktur və logistika qərarlarının uzlaşdırılması, eləcə də dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində əlavə tədbirlər görülməsini zərur hesab edir. Ölkəmizin zəngin təbii resursları isə yüksək dəyər yaratmaq üçün böyük imkanlar yaradır. Eyni zamanda, enerji imkanlarımız və nəqliyyat infrastrukturumuz bu prosesdə regionun sənaye mərkəzinə çevrilməyi şərtləndirir.

Azərbaycanın Orta Dəhliz üzərində yerləşməsi əlaqəli sənaye sahələrinin də dayanıqlı inkişafı üçün əlverişli şərait yaradır. Bu baxımdan ölkədə dağ-mədən və metallurgiya sənayesinin xammaldan son məhsula qədər dəyər zənciri üzrə inkişafının sürətləndirilməsi, mineral resurslardan səmərəli istifadə olunması və yüksək əlavə dəyər yaradan metal emalının genişləndirilməsi, habelə metallurgiya məhsullarının ixrac potensialının artırılması məqsədilə əhatəli tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Bunun üçün mineral ehtiyatların yenidən kəşfiyyatının aparılması, mövcud emal proseslərinin təkmilləşdirilməsi və daha yüksək emal səviyyəli məhsullar istehsalı infrastrukturlarını yaratmaqdır. Daşkəsən, Gədəbəy, Zəngilan, Ağdərə, Kəlbəcər, Naxçıvan və digər bölgələrdə mövcud və yeni ehtiyatları müəyyənləşdirməklə iqtisadi cəhətdən səmərəli olan yataqları mərhələli şəkildə sənaye dövriyyəsinə daxil etmək əsas hədəf prinsipləridir. Bununla yanaşı, Qərb Sənaye Parkının yaradılması dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirməyə imkan yaradır.

**Zəngin mineral resurslar geoloji kəşfiyyat dövrünü gözləyir**

Müşavirədə bu məsələlərə xüsusi diqqət yetirildi və dövlət başçısının vurğuladığı kimi ötən dövrlərdə, sovet hakimiyyəti illərində obyektiv və subyektiv səbəblərə görə, dağ-mədən sənayesi lazımi səviyyədə inkişaf etməyib, ancaq indi əlverişli imkanlar yaranıb və bu fürsəti qaçırmaq olmaz. Uzun illərdir ki, prioritet sahə sayılan neft sənayesindən hazırda mineral sənayeyə transformasiya başlamalıdır. Ölkəmizin kifayət qədər perspektivli yataqları var ki, öz geoloji kəşfiyyat dövrünü gözləyir. Ona görə də, bu məsələlərin kompleks və sistemli həlli üçün Dövlət Proqramı hazırlanıb.

Prezidentin təsdiqlədiyi "Dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" funksionallığı və yeni sənaye institutlaşması baxımından mühüm əhəmiyyət kəsb edir.



Proqramın əsas məqsədləri sadədir: bu, daha çox xammal hasil etmək deyil, bu, xammalı ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır. Başlıca hədəf istiqamətləri isə mineral xammal bazasının genişləndirilməsi, mövcud istehsal güclərinin artırılması və yeni layihələrin həyata keçirilməsidir. Dəmir filizi, alüminium, mis və qızıl yataqlarının istismarının genişləndirilməsi, eyni zamanda, yeni yataqların iqtisadi dövriyyəyə cəlb edilməsi nəzərdə tutulur ki, bu da gələcəkdə sənayeləşmənin yeni bazasını formalaşdıracaq.

Sənədin icrasında dövlətin tənzimləyici və dəstəkləyici rolu ilə yanaşı, dövlət müəssisələrinin və özəl sektorun investisiya imkanlarından da istifadə olunacaq.

**Stimullaşdırıcı tədbirlər və güzəştlərin tətbiqi**

Proqramda həm geoloji kəşfiyyat və istehsal, həm emal, həm ixrac, həm də sərmayələrin təşviqi baxımından səmərəli müddəalar öz əksini tapıb. Sənədə əsasən, qara metallurgiya sahəsində mövcud bazar şəraitinin, istehsal və logistika xərclərinin qiymətləndirilməsi, tətbiq oluna biləcək stimullaşdırıcı tədbirlərin və güzəştlərin müəyyən ediləcək. Müəyyən edilmiş stimullaşdırıcı tədbirlər və güzəştlər iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, iqtisadi cəhətdən məqsədə uyğun dəstək alətlərinin və rəqabətli dəmir yolu yükdaşıma tarifi mexanizmi formalaşdırılacaq. İqtisadi cəhətdən məqsədəuyğun stimullaşdırıcı tədbirlərin və güzəştlərin tətbiqinə başlanılması, habelə qara metallurgiya məhsullarının daşınması üzrə rəqabətli dəmir yolu yükdaşıma tarifi mexanizmi tətbiq ediləcək.

**4 ildə 5 mindən çox daimi iş yerləri yaradılacaq**

Dağ-mədən və metallurgiya sənayesi həm də sosial xarakterli sektordur. Burada yeni istehsal və emal bloklarının işə salınması çoxminli iş yerinin açılmasını da təşviq edəcək. İlkin dəyərləndirmələrə görə, təkcə 4 il ərzində beş mindən çox daimi iş yerlərinin açılması nəzərdə tutulur. Bütövlükdə isə həmin sənaye xəttinin davamlı olacağını nəzərə alsaq növbəti illərdə iş yerlərinin sayının daha da artması istisna deyil.

**Proqramın əsas məqsədləri sadədir: bu, daha çox xammal hasil etmək deyil, bu, xammalı ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır. Başlıca hədəf istiqamətləri isə mineral xammal bazasının genişləndirilməsi, mövcud istehsal güclərinin artırılması və yeni layihələrin həyata keçirilməsidir**

Proqramın əsas hədəfləri kifayət qədər böyükdür. 2030-cu ilədək dağ-mədən və metallurgiya sektorunun ümumi daxili məhsula töhfəsinin 700 milyon manatdan 1,8 milyard manata, illik ixrac potensialının isə 1,3 milyard manatdan 2025-ci ilin orta dünya qiymətləri əsasında 3,4 milyard manata çatdırılması nəzərdə tutulur.

*E.CƏFƏRLİ*



# Vətən müharibəsinə 3 gün qalırdı...

Yaxın tariximizin bu günü - 24 sentyabr 2024-cü il. Vətən müharibəsinə cəmi 3 gün qalırdı. Sentyabrın 27-də Ermənistan otuz illik işğalçılıq siyasətinin davamı olaraq keçmiş təmas xətti boyunca növbəti təxribata əl atdı. Bəhs olunan təxribat daha geniş müharibə cinayəti idi. Açıq-aydın görünürdü ki, təcavüzkarlıq siyasətinə görə cəzalandırılmayan, beynəlxalq sanksiyalara məruz qalmayan Ermənistan yeni torpaqlar ələ keçirmək istəyir.

Belə olduqda Azərbaycan öz gücü ilə düşmənə qətiyyətli cavab vermək, davamlı hal alan təxribatlara son qoymaq və ərazi bütövlüyünü, suverenliyini təmin etmək əzmini ortaya qoydu. Sentyabrın 27-də istənilən vəzifəni yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tələsmədən və gecikmədən verdiyi göstərişlərə əsasən genişmiqyaslı əkshücum əməliyyatına başladı. Elə ilk gündən düşmən Ordumuzun sarsıdıcı zərbələrini aldı və cəmi 44 gün ərzində tam kapitulyasiyaya məruz qaldı.

## Fəal diplomatiya - Azərbaycan BMT-də Ermənistanın yeni müharibə hazırlıqları barədə məlumat verib

Azərbaycan təxminən otuz il ərzində ATƏT-in Minsk formatında aparılan danışıqlarda fəal iştirak etməklə keçmiş Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə tərəfdar olduğunu bütün dünyaya nümayiş etdirib. Prezident İlham Əliyev fəal diplomatiya apararaq daim beynəlxalq ictimaiyyəti keçmiş münaqişənin mahiyyəti barədə məlumatlandırır, ölkəmizin ədalətli və prinsipial mövqeyini ortaya qoyurdu.

Bu baxımdan dövlətimizin başçısının 2020-ci il 24 sentyabr tarixində BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarındakı əhatəli çıxışı da xarakterikdir. Yüksək tribunadan Ermənistanın təcavüzkarlıq siyasəti aparmasına, işğal etdiyi ərazilərdə beynəlxalq konvensiyaları pozmaqla qanunsuz məskunlaşma həyata keçirdiyinə, mədəni-dini irsimizi məqsədli şəkildə məhv etməklə tarixi torpaqlarımızda Azərbaycanın izini itirməyə çalışmasına, xarici şirkətləri cəlb etməklə təbii sərvətlərimizi talamasına, ən nəhayət, BMT qətnamələrini yerinə yetirməməsinə diqqət çəkdi. Ermənistanın işğalçılıq siyasətinə, vandalizm əməllərinə görə cəzalandırılmaması ikili standartlar nümunəsi idi. Bu isə təcavüzkar dövləti yeni ərazilər uğrunda yeni müharibəyə ruhlandırırdı. Baş nazir Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” deməsi, əslində, danışıqlar prosesinin mənasız olduğunu ortaya qoydu.

Qarşı tərəf müharibə iddialarını, həmçinin sahədə nümayiş etdirirdi. Prezident İlham Əliyev çıxışında Ermənistanın artan təxribatları barədə geniş məlumat verib və beynəlxalq birliyə çağırış edərək vurğulayıb: “Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik.

Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

## Bir gündə atəşkəs rejimi 69 dəfə pozulub

Düşmən aqressiv siyasətini getdikcə daha da gücləndirirdi. 2020-ci il sentyabrın 24-də baş verənlər də bunun əyani təsdiqi idi. Həmin tarixdə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 69 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin sentyabrın 24 yaydığı məlumatda bildirilib ki, Ermənistanın Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

Yeganə məqsədi ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin etmək olan Azərbaycan Ordusu isə düşmənin artan təxribatları fonunda özünün döyüş qabiliyyətini artırmağı hədəfləyən təlimlərini davam etdirir və ayıq-sayıqlığını daha da artırırdı. Bu məqsədlə müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) təlim-döyüş uçuşları keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, uçuşlar zamanı əsas diqqət müxtəlif hündürlüklərdə və sürətlərdə hücum və müdafiə manevrlərindən istifadə edərək pilotaj texnikasına yönəldilib. Müasir manevrli hava döyüşlərinin aparılması üzrə tapşırıqların yerinə yetirilməsi zamanı təyyarələrin ekipajları növbə ilə düşmənin yer hədəflərinin aşkarlanması və məhv edilməsi tapşırıqlarını yerinə yetiriblər.

Həmçinin Hərbi Hava Qüvvələrinin gecə və məhdud görmə şəraitində təlim uçuşları keçirilib. Ssenariyə əsasən Su-25 və MiQ-29 tipli təyyarələr havaya qalxma və yerə enmə, şərti hava və yer hədəflərinin məhv edilməsi, kiçik və orta hündürlükdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqları icra ediblər.

Təlimlər zamanı pilotlar, həmçinin şərti düşmənin yerüstü hədəflərinin koordinatlarını təyin etməklə hava kəşfiyyatı da həyata keçiriblər. Gecə təlimlərində qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

*Mübariz FEYİZLİ*

# Qlobal təhlükəsizliyin yeni çağırışları: Bakı dialoq və əməkdaşlıq platforması kimi

Müasir beynəlxalq münasibətlər sistemi klassik hərbi qarşıdurmalardan kənara çıxaraq daha mürəkkəb təhlükələr toplusu ilə üz-üzə qalıb - günümüzdə terror şəbəkələri, transmilli cinayətkarlıq, narkotik qaçaqmalçılığı, miqrasiya böhranları, kiberhücumlar və informasiya müharibələri dövlətlərin təhlükəsizlik müstəvisini ciddi sınağa çəkir. Mərkəzi Avropada baş verən konfrantasiyalar, Yaxın Şərqdə davam edən qarşıdurmalar beynəlxalq təhlükəsizlik sisteminin zəif bəndlərini açıq şəkildə üzə çıxarır. Bu mənzərə göstərir ki, hər bir ölkənin təhlükəsizliyi qlobal sabitlikdən birbaşa asılıdır.

Təhlükəsizlik məsələlərinin effektiv həllində vahid yanaşma, dövlətlərin həmrəyliyi və kəşfiyyat qurumlarının əməkdaşlığı xüsusi rol oynayır. Kəskinləşən ziddiyyətlərin hökm sürdüyü qlobal nizamda Azərbaycan təhlükəsizlik siyasətini yalnız öz milli maraqları çərçivəsində deyil, ümumbəşəri dəyərlər və beynəlxalq sabitlik naminə həyata keçirir. Bu isə ölkəmizi qlobal təhlükəsizlik arxitekturasının mühüm dayaqlarından birinə çevirir. Təsadüfi deyil ki, Bakı mütəmadi olaraq təhlükəsizlik məsələlərinin müzakirəsi üçün platformalar açır. Prezident İlham Əliyev IV Bakı Təhlükəsizlik Forumunun iştirakçılarına müraciətində bildirib ki, artıq dördüncü

## Bakı Təhlükəsizlik Forumu əməkdaşlıq imkanlarını genişləndirir



dəfə Bakıda keçirilən bu Forum müxtəlif ölkələrin xüsusi xidmət və təhlükəsizlik orqanlarının rəhbər və nümayəndələrini bir araya gətirməklə beynəlxalq təhlükəsizlik sahəsində fikir mübadiləsi və qarşılıqlı əməkdaşlığın inkişafı üçün mühüm imkan yaradır: “Forumun iştirakçı coğrafiyasının ildən-ilə genişlənməsi və müzakirə olunan məsələlərin aktuallığı Bakı platformasının beynəlxalq səviyyədə artan nüfuzunun göstəricisidir. Əminəm ki, builki tədbir də təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı, qarşılıqlı fikir və təcrübə mübadiləsi baxımından əhəmiyyətli olacaqdır”.

## Təhlükəsizliyin yeni ölçüləri - əməkdaşlıq, həmrəylik və koordinasiya

Müasir mərhələdə təhlükəsizlik məsələlərinə yanaşma əvvəlki təsəvvürlərdən xeyli fərqlənir. Beynəlxalq və regional qurumlar arasında koordinasiyanın gücləndirilməsi bu gün mühüm mexanizm kimi çıxış edir. Dövlətlərarası münasibətlərdə etimadın möhkəmləndirilməsi, təhlükəsizlik strukturları arasında informasiya mübadiləsinin gücləndirilməsi və birgə fəaliyyət imkanlarının artırılması yeni risklərə qarşı hazırlığı yüksəldir. Xüsusilə hərbi və təhlükəsizlik sahəsində keçirilən birgə təlimlər müxtəlif ölkələrin praktiki imkanlarını uzlaşdırmağa, mümkün fövqəladə vəziyyətlər zamanı qarşılıqlı fəaliyyət mexanizmlərini sınaqdan keçirməyə şərait yaradır. Bununla yanaşı, müasir risklərin qarşısının alınmasında yalnız hərbi vasitələr kifayət etmir. İnformasiya məkanının qorunması, rəqəmsal sistemlərin dayanıqlığının artırılması, strateji obyektlərin mühafizəsi və mühüm kommunikasiya xətlərinin təhlükəsizliyinin təmin edilməsi də kompleks yanaşma tələb edir. Belə şəraitdə preventiv tədbirlər, operativ informasiya mübadiləsi və qarşılıqlı fəaliyyət imkanlarının genişləndirilməsi təhlükəsizliyin təmin olunmasının mühüm istiqamətlərinə çevrilir. Dövlət başçısı vurğulayıb ki, dünyada sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması bütün dövlətlərin ortaq məsuliyyətidir: “Müasir çağırışların miqyası və təhdidedici xarakteri qarşılıqlı əməkdaşlığın gücləndirilməsini, çevik və əlaqələndirilmiş yanaşmaların tətbiqini zəruri edir. Çünki təhlükəsizlik anlayışı artıq ayrı-ayrı dövlətlərin sərhədləri ilə məhdudlaşmır. Hər hansı bir regionda meydana gələn böhran və ya gərginlik ocağı qısa müddət ərzində digər regionlara təsir göstərə, siyasi və iqtisadi sabitliyə, enerji və ərzaq təhlükəsizliyinə xələl gətirə, nəqliyyat və kommunikasiya əlaqələrində ciddi fəsadlara yol aça bilir. Terrorçuluq və ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, qanunsuz silah və narkotik dövriyyəsi, kibercinayətkarlıq və digər transsərhəd təhdidlər də məhz bu qarşılıqlı bağlılıqdan istifadə edərək daha mürəkkəb xarakter alır”.

## Yeni reallıqlar - sabitliyin qorunması...

Son illərin mənzərəsi göstərir ki, dövlətlər qarşısında dayanan çağırışların xarakteri də, onlara cavab vermək imkanları da dəyişir. Bu şəraitdə ayrı-ayrı ölkələrin öz imkanları hesabına bütün riskləri idarə etməsi çətinləşir. Bir dövlətin ərazisində və ya regionunda yaranan problem qısa müddətdə daha geniş coğrafiyaya təsir göstərə bilir. Ticarət yollarının təhlükəsizliyi, enerji marşrutlarının sabitliyi və kommunikasiya xətlərinin qorunması da artıq regional deyil, beynəlxalq əhəmiyyət daşıyan məsələlərə çevrilib.

Belə bir mərhələdə dövlətlər arasında etimadın möhkəmləndirilməsi, təhlükəsizlik sahəsində dialoqun genişləndirilməsi və praktiki əməkdaşlıq mexanizmlərinin yaradılması xüsusi əhəmiyyət qazanır. Hərbi təlimlərin keçirilməsi, müdafiə qurumları arasında təcrübə mübadiləsi, sərhəd təhlükəsizliyi üzrə koordinasiya və fövqəladə vəziyyətlərə birgə hazırlıq bu baxımdan mühüm vasitələrdir. Yeni reallıqlar göstərir ki, sabitliyin qorunması yalnız mövcud risklərə reaksiya verməklə deyil, mümkün təhlükələri əvvəlcədən müəyyənləşdirərək çevik və koordinasiyalı fəaliyyət qurmaqla mümkündür. Prezident İlham Əliyev qeyd edib ki, bu gün dünya sürətli və mürəkkəb dəyişikliklər dövrünü yaşayır: “Beynəlxalq münasibətlər sistemində baş verən proseslər, geosiyasi rəqabətin kəskinləşməsi, müxtəlif regionlarda davam edən münaqişələr və qarşıdurmalar qlobal təhlükəsizlik mühitinə ciddi təsir göstərir. Etimad böhranının kəskinləşməsi və qarşılıqlı anlaşmanın çətinləşməsi milli təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsini və beynəlxalq sabitliyin qorunmasını bütün ölkələrin qarşısında duran fundamental və təxirəsalınmaz prioritetə çevirir”.



Günümüzün reallığında təhlükəsizlik sahəsində qarşıya çıxan əsas məsələlərdən biri yaranan risklərə vaxtında və adekvat reaksiya verməkdir. Təhdidin miqyasını və mümkün nəticələrini əvvəlcədən müəyyənləşdirmək, zəruri addımları gecikdirmədən atmaq üçün dövlət qurumları arasında sıx əlaqə və informasiya mübadiləsi mühüm rol oynayır. Hadisəyə yalnız baş verdikdən sonra müdaxilə etmək əvəzinə, onun ilkin əlamətlərinin müəyyənləşdirilməsi və mümkün inkişaf istiqamətlərinin qiymətləndirilməsi daha səmərəli nəticə verə bilər.

Bu baxımdan müxtəlif ölkələrin aidiyyəti strukturları arasında davamlı əlaqələrin qurulması xüsusi əhəmiyyət daşıyır. Terror aktı, silahlı insident və ya digər təhlükəli hadisə yalnız baş verdiyi ərazi ilə məhdudlaşmaya bilər. Belə vəziyyətlərdə sərhədlərarası məlumat mübadiləsi, risklərin qiymətləndirilməsi və əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsi mümkün təhlükələrin genişlənməsinin qarşısını almağa imkan verir.

Koordinasiyanın effektiv olması üçün

## Operativ reaksiyanın əsas şərti...

isə yalnız böhran zamanı əlaqə yaratmaq kifayət deyil. Daimi dialoq, mütəmadi görüşlər, ekspert müzakirələri və təhlükəsizlik qurumları arasında təcrübə mübadiləsi əvvəlcədən formalaşmış fəaliyyət mexanizmlərinin işlək vəziyyətdə saxlanılmasına kömək edir. Bu platformalar həm mövcud problemlərin müzakirəsinə, həm də gələcək risklərə qarşı birgə yanaşmaların hazırlanmasına imkan yaradır. Beləliklə, əməkdaşlıq təsadüfi reaksiyadan davamlı təhlükəsizlik mexanizminə çevrilir. Prezident İlham Əliyev bildirib ki, təhlükəsizliyin etibarlı təmin olunması üçün yalnız mövcud təhdidlər və onların nəticələri ilə mübarizə aparmaq deyil, riskləri əvvəlcədən müəyyən etmək və onların qarşısını vaxtında almaq vacibdir: “Bunun üçün dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, təhlükəsizlik orqanları arasında peşəkar əlaqələrin inkişaf etdirilməsi və qarşılıqlı məlumat mübadiləsinin effektivliyinin artırılması xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, açıq və etibarlı dialoq əsasında qurulan tərəfdaşlıqlar ən mürəkkəb təhlükəsizlik çağırışlarının belə daha çevik və effektiv şəkildə qarşısının alınmasına imkan yaradır”.

## Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasını əsas prioritetlərdən hesab edir

Azərbaycanın xarici siyasətinin strateji əsaslarından biri olan təhlükəsizliyin təmini ideyası, onun konstruktiv məzmunu hazırkı real siyasi proseslərdə özünü doğruldur - beynəlxalq münasibətlərin katklizmlərlə dolu mürəkkəb mərhələsində Azərbaycan Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturası müəyyənləşdirir və bölgəni strateji tərəfdaşlıq üçün cazibə mərkəzinə çevirir. Azərbaycan Şərq ilə Qərbin həm sivilizasiyalararası, həm iqtisadi əməkdaşlıq, həm də siyasi tərəfdaşlıq maraqlarını bizim coğrafiyada cəmləyir. Terrorizmə qarşı mübarizədə mühüm qətiyyət nümayiş etdirən Azərbaycan qeyri-adekvat halların istisna olunması üçün səylərini səfərbər edir - təhdid və təhlükələrə qarşı koordinasiyalı fəaliyyət təşkil edir, təhlükəsizliyin təmini üçün bütün gücləri birləşdirir. Kəskinləşən ziddiyyətlərin hökm sürdüyü qlobal nizamda Azərbaycan təhlükəsizlik siyasətini yalnız öz milli maraqları çərçivəsində deyil, ümumbəşəri dəyərlər və beynəlxalq sabitlik naminə həyata keçirir. Bu isə ölkəmizi qlobal təhlükəsizlik arxitekturasının mühüm dayaqlarından birinə çevirir. Prezident İlham Əliyev müraciətində qeyd edib ki, Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasını, dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsini və əməkdaşlığın genişləndirilməsini əsas prioritetlərdən hesab edir: “Ölkəmiz müxtəlif beynəlxalq və regional platformalarda təhlükəsizlik məsələləri ilə bağlı dialoqun təşviqinə, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə mühüm əhəmiyyət verir. Bakı Təhlükəsizlik Forumunun keçirilməsi də bu məqsədlərə xidmət edərək konkret əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə və qarşılıqlı etimadın daha da möhkəmləndirilməsinə şərait yaradır”.

*Pərviz SADAYOĞLU*

# BMT Baş Assambleyasının 81-ci sessiyasında...

## Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevdən sitat gətirdi

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının hər il keçirilən ənənəvi sessiyası dünya diplomatiyasının ən mühüm platformalarından biri kimi qəbul edilir. Müxtəlif ölkələrin dövlət və hökumət başçıları, xarici işlər nazirləri və digər yüksək səviyyəli nümayəndələri burada beynəlxalq gündəmin əsas məsələlərini müzakirə edir, mövqelərini açıqlayır və ikitərəfli görüşlər keçirirlər. Xüsusilə qlobal təhlükəsizlik, münaqişələrin həlli, iqlim dəyişiklikləri, iqtisadi inkişaf, humanitar problemlər və yeni texnoloji çağırışlar kimi məsələlərin eyni diplomatik məkanda müzakirəsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Baş Assambleya yalnız çıxışlar tribunası deyil, həm də fikir mübadiləsi, dialoq və qarşılıqlı anlaşma üçün geniş imkanlar yaradan mühüm beynəlxalq platformadır. Bu il Nyu-Yorkda keçirilən Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 81-ci sessiyası da bu kimi mühüm uğurları ilə yadda qalır.

### 45 hökumət başçısı, 50 nazir, 11 vitse-prezident və bir vəliəhdin iştirak etdiyi müzakirələr...

Yetmiş bir dövlət başçısı, 45 hökumət başçısı, 50 nazir, 11 vitse-prezident və bir vəliəhdin iştirak etdiyi müzakirələrin ilk gününü ənənəvi olaraq Braziliya Prezidenti Luis İnasio Lula da Silva açıq elan edib. Daha sonra ABŞ Prezidenti Donald Tramp çıxış edib. ABŞ Prezidenti ümumi müzakirələrdə çıxışı zamanı Azərbaycan-Ermənistan sülh prosesinə toxunub. Tramp həllinə nail olduğunu bildirdiyi münaqişələr sırasında Azərbaycan ilə Ermənistan arasındakı uzunmüddətli münaqişəni də qeyd edib. O, Azərbaycan Prezidenti İlham Əliyevdən sitat gətirib. “Azərbaycan Prezidenti bildirdi ki, Prezident Tramp altı ay ərzində möcüzə yaradıb. Bu, heç kimin mümkün hesab etmədiyi əsl möcüzə idi”, - deyə ABŞ Prezidenti bildirib.

ABŞ Prezidenti əlavə edib ki, həllinə töhfə verdiyi münaqişələrdə iştirak edən ölkələrin demək olar hamısı ona təşəkkür məktubu göndərib.

ABŞ Prezidentinin Prezident İlham Əliyevdən sitat gətirməsi, mühüm bir tribunadan Azərbaycan nümunəsini bütün dünyaya təqdim etməsi olduqca vacib bir məqamdır. Bu, Prezident İlham Əliyevin regional və qlobal miqyasda sülhə, təhlükəsizliyə verdiyi töhfələrin, sabitliyin qorunması və inkişafın təmin edilməsi yönündə addımlarının, münaqişələrin bitirilməsi və normal münasibətlərin qurulması müstəvisində fəaliyyətinin yüksək şəkildə dəyərləndirilməsidir. Prezident Trampın iştirakı ilə 2025-ci ilin avqustunda Vaşinqtonda Azərbacanın sülh təşəbbüsünün təsdiqlənməsi Cənubi Qafqazda yeni bir reallıq yaradıb. Sülhün müəllifi olan Azərbaycan isə bu gün bütün dünyaya nümunə təqdim edir - 30 illik münaqişəni sona yetirən, ədaləti və beynəlxalq hüququ təmin edən, bölgə üçün sülh, rifah və inkişaf vəd edən strateji yol xəritəsi hazırlayan dövlətin nümunəsini...

Donald Tramp çıxışında həmçinin Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) bütün üzv dövlətlərini təşkilatdan çıxmağa çağırıb. O, həmçinin məhkəməni “nəzarətdən çıxmış bir qurum” və “pislik edən bir qrup insan” adlandırıb. O qeyd edib ki, Vaşinqton ABŞ hərbçilərinin “saxta, anti-Amerika tribunalına” çıxarılmasına icazə verməyəcək. “Mən bütün Beynəlxalq Cinayət Məhkəməsinə üzv ölkələri bu nəzarətdən çıxmış quruma üzvlüklərini dərhal və rəsmi olaraq ləğv etməyə çağırıram”, - deyə Tramp bildirib.

Donald Tramp həmçinin Ukraynadakı müharibə ilə bağlı fikirlərini bölüşüb. BMT Baş Assambleyasındakı çıxışı zamanı Donald Tramp Ukraynadakı müharibənin tezliklə bitəcəyini gözlədiyini açıq şəkildə bildirib. Ağ Ev rəhbəri vurğulayıb ki, Amerika Birləşmiş Ştatları bu məsələ ilə bağlı Rusiya və Ukrayna rəhbərliyi ilə sıx əməkdaşlıq edir. O, əlavə edib ki, bu münaqişə çoxlarının düşündüyündən daha tez həll olunacaq.



### Tramp BCM-in bütün üzv dövlətlərini təşkilatdan çıxmağa çağırıb

ABŞ Prezidenti Donald Tramp İranla bağlı məsələyə də toxunub. Jurnalistlərin suallarını cavablayan Tramp bildirib ki, İranla görüş çox yaxşı keçdi. ABŞ Prezidenti bildirib ki, İranla görüş təxminən üç saat davam edib. Tramp tərəflər arasında yaxın zamanda daha bir görüşün keçirilməsinin planlaşdırıldığını da qeyd edib.

### Ceyhun Bayramov İƏT Cammu və Kəşmir üzrə Kontakt Qrupunun iclasında çıxış edib

Qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov sessiya çərçivəsində ümumi müzakirələrinin rəsmi açılışında iştirak edib, bir sıra mühüm görüşlər keçirib. Ümumi müzakirələr aktual qlobal və regional çağırışlar ətrafında fikir mübadiləsi aparmaq, həmçinin sülh, təhlükəsizlik və dayanıqlı inkişaf naminə beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədilə dünya liderlərini və üzv dövlətlərin nümayəndələrini bir araya gətirir.

Bundan başqa, Azərbaycanın xarici işlər naziri İsveçrə Konfederasiyasının Federal Şurasının üzvü və Xarici İşlər üzrə Federal Departamentin rəhbəri İqnatsio Kassis ilə görüşüb. Tərəflər Azərbaycan-İsveçrə münasibətlərinin mövcud vəziyyəti və perspektivlərini müzakirə edərək, müntəzəm siyasi dialoqun davam etdirilməsinin və ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıblar. Görüşdə, həmçinin ATƏT çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər davamlı qarşılıqlı əlaqələrin və konstruktiv beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd ediblər.

### Banqladeş ilə Azərbaycan arasında diplomatik, rəsmi və xidməti pasport sahibləri üçün viza tələblərindən azadetmə haqqında saziş

BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının xarici işlər naziri Abbas Əraqçi ilə görüşüb. Görüş zamanı Azərbaycan ilə İran arasında ikitərəfli və çoxtərəfli gündəlik, həmçinin regional proseslər nəzərdən keçirilib. Nazirlər davamlı yüksəksəviyyəli təmasların, qarşılıqlı hörmətin və mehriban qonşuluq münasibətlərinin əhəmiyyətini vurğulayıblar. Həmçinin regional təhlükəsizlik məsələləri müzakirə edilib, diplomatiya və dialoqun, eləcə də sülh və sabitliyin təşviq edilməsinin vacibliyi vurğulanıb.

Ceyhun Bayramov BMT Baş Assambleyasının 81-ci sessiyasının prezidenti, Banqladeşin xarici işlər naziri Xəlilur Rəhman ilə də görüşüb. Görüş zamanı BMT və digər çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq, eləcə də qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov və Xəlilur Rəhman “Azərbaycan Respublikası Hökuməti ilə Banqladeş Xalq Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahibləri üçün viza tələblərindən azadetmə haqqında Saziş”i imzalayıblar. Sənəd rəsmi təmasların inkişaf etdirilməsi və qarşılıqlı faydalı tərəfdaşlığın əhatə dairəsinin genişləndirilməsinə dəyərli töhfə olacaq.







Ceyhun Bayramov Cibutinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdulkader Hüseyn Ömər ilə görüşüb. Görüşdə Azərbaycan-Cibuti münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri nəzərdən keçirilib. Tərəflər yüksəksəviyyəli təmasların və siyasi dialoqun davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Ticarət, iqtisadiyyat, təhsil və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi, mövcud imkanlardan səmərəli istifadə olunması məsələlərinə xüsusi diqqət yetirilib.

Nazirlər, həmçinin BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalarda koordinasiya və qarşılıqlı dəstək məsələlərini müzakirə ediblər. Görüşdə Azərbaycanın 2027-ci ildə İƏT Sammitinə ev sahibliyi etməyə hazırlığı və qarşıdakı İƏT sədrliyi ilə bağlı məsələlər də müzakirə olunub.

Ceyhun Bayramov həmçinin, BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Cammu və Kəşmir üzrə Kontakt Qrupunun iclasında çıxış edib. Nazir Azərbaycanın mübahisənin beynəlxalq hüquq, beynəlxalq humanitar hüquq, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq sülh yolu ilə həllinə sadiqliyini bir daha təsdiqləyib. Ceyhun Bayramov, həmçinin regional sülh və sabitliyin möhkəmləndirilməsi baxımından Hindistan ilə Pakistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Sessiya çərçivəsində Ceyhun Bayramov Macarıstanın xarici işlər naziri, Baş nazirin müavini Anita Orban ilə görüşüb. Görüş zamanı tərəflər Azərbaycan-Macarıstan münasibətlərinin mövcud vəziyyətini və inkişaf perspektivlərini müzakirə edib, müntəzəm siyasi dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıblar. Tərəflər, həmçinin Azərbaycan-Avropa İttifaqı münasibətləri, eləcə də regional və beynəlxalq proseslər barədə fikir mübadiləsi aparıblar.

### Kolumbiya ilə saziş imzalanıb...

Ceyhun Bayramov həmçinin Kolumbiyanın xarici işlər naziri Omar Bula Eskobar ilə görüşüb. Görüşdə Azərbaycan-Kolumbiya münasibətlərinin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Siyasi dialoqun daha da gücləndirilməsinin və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb. Nazirlər iqtisadi əlaqələrin, turizm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını nəzərdən keçiriblər. İki ölkə arasında “Adi pasportlara malik şəxslərin viza tələbindən qarşılıqlı azad edilməsi haqqında” Saziş imzalanıb. Saziş Azərbaycan və Kolumbiya arasında əlaqələrin hüquqi və institusional əsaslarının daha da möhkəmləndirilməsinə xidmət edəcək.

### Pakistan, Ukrayna və Sinqapurun XİN başçıları ilə görüş...

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Sinqapurun xarici işlər naziri Vivian Balakrişnan ilə görüşüb. Görüşdə Azərbaycan-Sinqapur münasibətlərinin gündəliyində duran cari məsələlər və ikitərəfli əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Nazirlər siyasi dialoqun intensivləşdirilməsi, qarşılıqlı səfərlərin təşviqi və müxtəlif səviyyələrdə təmasların davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Ticarət və investisiya, rəqəmsal transformasiya və innovasiya, nəqliyyat və logistika, təhsil və insan kapitalının inkişafı sahələrində əməkdaşlıq imkanlarına xüsusi diqqət yetirilib. Sinqapur vətəndaşları üçün 2026-cı il 1 avqust tarixindən tətbiq edilən vizasız rejimin qarşılıqlı səfərlərin, biznes əlaqələrinin və turizmin inkişafı baxımından yaratdığı yeni imkanlar vurğulanıb.

Sessiya çərçivəsində Ceyhun Bayramov Ukraynalı həmkarı Andrey Sibiqa ilə də görüşüb. Görüş zamanı ikitərəfli gündəlik, regional və beynəlxalq təhlükəsizlik mühitində baş verən proseslər, eləcə də sülh və sabitliyin təşviqi perspektivləri barədə fikir mübadiləsi aparılıb. Nazirlər davam edən geosiyasi proseslər, beynəlxalq hüququn prinsiplərinə riayət olunmasının əhəmiyyəti və münaqişələrin həllində konstruktiv dialoqun rolu barədə fikir mübadiləsi aparıblar. Təhlükəsizlik çağırışlarının həlli və davamlı sülhün təşviqi istiqamətində çoxtərəfli əməkdaşlığın əhəmiyyəti bir daha vurğulanıb.

Xarici işlər naziri C.Bayramov Pakistanın Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Dar ilə də görüşüb. Nazirlər Azərbaycan və Pakistan arasında strateji tərəfdaşlıq münasibətlərini nəzərdən keçirib, iki ölkə arasında mühüm siyasi dialoqu vurğulayıblar. Tərəflər beynəlxalq platformalarda milli maraq doğuran məsələlər üzrə qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyini qeyd ediblər.

### Ceyhun Bayramov Donald Trampın ev sahibliyi etdiyi qəbulda iştirak edib

Nazir Ceyhun Bayramov Bolqarıstanın xarici işlər naziri Velislava Petrova ilə də görüşüb. Tərəflər strateji tərəfdaşlıq gündəliyini, o cümlədən siyasi dialoq, enerji əməkdaşlığı, Azərbaycan qazının Bolqarıstana tədarükünün genişləndirilməsi, bərpaolunan enerji layihələri, həmçinin Orta Dəhliz vasitəsilə nəqliyyat və bağlantı məsələlərini müzakirə ediblər. Nazirlər eləcə də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı və regional proseslər barədə fikir mübadiləsi aparıblar.

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ABŞ Prezidenti Donald Trampın ev sahibliyi etdiyi qəbulda iştirak edib. Xarici İşlər Nazirliyinin bununla bağlı yaydığı məlumatda bildirilib ki, “Qəbul 8 avqustda keçirilmiş Vaşinqton Sammiti və Strateji Tərəfdaşlıq Xartiyasının imzalanmasından sonra Azərbaycan-ABŞ tərəfdaşlığının genişləndiyi dövrə təsadüf edir. Əlaqələndirmə, enerji, ticarət və investisiya sahələri də daxil olmaqla, əməkdaşlığın daha da gücləndirilməsinə ümidvarıq”.

***P.İSMAYILOV***

# Transxəzər Nəqliyyat Dəhlizi artıq reallıqdır

## Azərbaycan və Çin arasında "Beynəlxalq avtomobil daşımaları haqqında" Saziş imzalanıb



Sentyabrın 22-də Pekində "Qlobal Dayanıqlı Nəqliyyat Forumu - 2026" çərçivəsində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə Yüksəksəviyyəli görüş keçirilib. Çin, Qazaxıstan, Türkiyə və digər ölkələrin hökumət heyətlərinin qatıldığı tədbirdə Azərbaycanı Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib. Beynəlxalq Nəqliyyat Forumunun Baş katibi Yanq Te Kim bildirib ki, "Kəmər və Yol" təşəbbüsü regionda siyasi və iqtisadi dialoqun möhkəmlənməsi, çoxşaxəli infrastrukturların əlaqələndirilməsi, ticarətin genişləndirilməsi və xalqların rifahının yaxşılaşması kimi elan edilmiş prioritetlərə çatmaqda mühüm rol oynamaqdadır. Həmin təşəbbüsün əsas strateji istiqamətlərindən biri olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu quruculuğu uğurla irəliləməkdədir. Orta Dəhliz ailəsinə daxil olan ölkələr arasında nəqliyyat bağlantılarının əlaqələndirilməsi, logistikaların modernləşdirilməsi dəhlizin əhəmiyyətini daha da artırır.

Ümumilikdə rəsmi Pekin Orta Dəhlizin beynəlxalq əhəmiyyətini müasir geosiyasi reallıqlar fonunda qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaldan mühüm faktor kimi qiymətləndirir.

Baş nazirin müavini Şahin Mustafayev tədbirdə çıxışı zamanı Orta Dəhlizin Şərq ilə Qərb arasında mühüm nəqliyyat bağlantısı kimi əhəmiyyətindən, Azərbaycan və Çin arasında yükdaşımaların həcminin artırılmasından, tranzit imkanlarının genişləndirilməsindən bəhs edib. Bildirilib ki, forum nəqliyyat və logistika sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsində mühüm rol oynayır.

Tədbir çərçivəsində Çin və Azərbaycan arasında nəqliyyat layihələrinin həyata keçirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında "Beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin mübadiləsi həyata keçirilib.

### Orta Dəhlizin daşınma gücü artırılır

2025-ci ilin iyun ayında Transxəzər marşrutu ilə ilk Çin-Avropa qatarının Pekindən Bakıya yola düşməsi bu marşrutun qlobal əhəmiyyətini gücləndirib. Şimal-Qərbi Çin-Aktau-Bakı xətti ilə hərəkət edən qatarların Ələt limanına və sonra digər region ölkələrinə çatdırılması "dəmir yolu-dəniz-dəmir yolu" multimodal xəttinin rentabelli istifadəsini təmin edib. 8 min km-dən çox məsafə və 15 günlük vaxt intervalı dəhlizin iqtisadi faydalılığını əks etdirib. Bir ildən artıqdır ki, Bakıdan Gürcüstan, Türkiyə, Serbiya və digər ölkələrə daşınan malların həcminin ardıcıl artması Orta Dəhlizin Çin-Avropa beynəlxalq yükdaşıma dəhlizinə çevrildiyini təsdiqləyir.

Yeri gəlmişkən, bir neçə gün əvvəl Qazaxıstan və Azərbaycan hökumətləri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun nəqliyyat-logistika infrastrukturunu gücləndirmək məqsədilə Ələt limanında intermodal yük terminalının yaradılması barədə razılıq əldə edib. Tərəflər yük axınlarının idarə edilməsi üzrə vahid sistemin yaradılması, logistika infrastrukturunun sinxron inkişafı, limanların gücünün genişləndirilməsi və donanmanın inkişaf etdirilməsi barədə niyyət protokolu imzalayıb. Qazaxıstan Dəmir Yolları İdarə Heyətinin sədr müavini Yerlan Koyşibayev bildirib ki, intermodal yük terminalının yaradılması nəqliyyat infrastrukturunun imkanlarını genişləndirməklə, Çin, Qazaxıstan və Azərbaycanın logistika habları arasında qarşılıqlı əlaqəni gücləndirəcək.



### Orta Dəhliz ortaq iqtisadi həmrəylik körpüsüdür

2026-cı ilin ötən 8 ayı ərzində Orta Dəhliz üzrə tranzit daşımalarının həcmi 38 min TEU-nu (380 konteyner qatarı) ötüb. 2025-ci ilin analoji dövrü ilə müqayisədə konteynerlərlə daşımaların həcmi 50,5 faiz, konteyner qatarlarının sayı isə 82,9 faiz artıb.

Orta Dəhliz hazırda Çin və Cənub-Şərqi Asiyanı Avropa ilə Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə birləşdirən nəhəng quru-dəniz nəqliyyat-logistika habı kimi qlobal nəqliyyat ailəsinin xüsusi diqqətini cəlb etməkdədir. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılan dəhlizə digər ölkələr də qoşulub.

Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Avropaya qədər uzanır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozlarına əsasən, 2030-cu ilə qədər Orta Dəhliz üzrə daşımaların həcmi 11 milyon tona, 2040-cı ilə qədər isə konteyner tutumu 865 min TEU-ya yüksələcək. Bu, Azərbaycan üçün yalnız müvəqqəti alternativ və ya ehtiyat planı deyil, həm də qlobal ticarət üçün uzunmüddətli, davamlı bir yoldur.

### Avropa İttifaqı da Orta Dəhlizə qoşulur

Avropa ölkələri də Orta Dəhliz ailəsinə qoşulmaq üçün öz nəqliyyat infrastrukturlarını inteqrasiya etmək yönündə addımlar atmağa başlayıb. Bolqarıstanın Qara dənizdəki Varna və Burqas limanlarının Orta Dəhlizdə birləşdirilməsi nəzərdə tutulur. Bununla bağlı Bolqarıstan Prezidenti Rumen Radev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Astanada keçirilən Qazaxıstan-Bolqarıstan Hökumətlərarası Komissiyasının iclası çərçivəsində razılaşma əldə edilib.Tərəflər Burqas və Varna dəniz limanlarının Qazaxıstanın strateji nəqliyyat-ticarət marşrutlarına inteqrasiyası üçün birləşdirici dəhliz layihəsi üzərində işləməyə razı olduqlarını bəyan ediblər. Həmçinin, Sloveniya da nəqliyyat şəbəkəsini Orta Dəhlizə birləşdirmək yönündə praktiki addımlar atmaqdadır. Sloveniya hökuməti Şərqlə ticarət əlaqələrini genişləndirmək niyyətini bəyan edib. Macarıstan və Ruminiya nəqliyyat infrastrukturlarını şaxələndirərək bu dəhlizə qoşmağı düşünür.

Ümumilikdə, Orta Dəhlizdə daşınmaların həcminin və dəhlizin geoiqtisadi əhəmiyyətinin artması Avropa İttifaqının da marağını bu bölgəyə daha çox fokuslayıb, Avropanın əksər ölkələri Mərkəzi Asiya-Xəzər -Avropa coğrafiyasına xüsusi önəm verərək bu bölgənin nəqliyyat infrastrukturlarının yenilənməsinə dəstək niyyətlərini bəyan edirlər.

Növbəti mərhələdə isə Zəngəzur dəhlizi də bu nəqliyyat sxeminə qoşula bilər. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhlizdir. Ona görə də Çin hökuməti də Zəngəzur dəhlizinin perspektivdə Transxəzər Beynəlxalq Nəqliyyat koridoruna inteqrasiyasını mümkün hesab edir.

"Qlobal Dayanıqlı Nəqliyyat Forumu - 2026"nın yekununda dayanıqlı nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsini və qarşılıqlı əlaqələrin gücləndirilməsini nəzərdə tutan Pekin Təşəbbüsü qəbul edilib. Tərəflər bəyan ediblər ki, forum iki tərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın simvoluna çevrilən Transxəzər Nəqliyyat Dəhlizinin əhəmiyyətinin daha da artması baxımından mühüm əhəmiyyət kəsb edir.

*E.CƏFƏRLİ*

# Uçot dərəcəsi sabit saxlanılıb

## Faiz dəhlizi isə genişləndirilib

Mərkəzi Bankın (MB) İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 6,5 faiz, yuxarı həddi isə 7,5 faiz səviyyəsində sabit saxlanılıb. Faiz dəhlizinin aşağı həddi isə 0,5 faiz bəndi azaldılaraq 5 faiz səviyyəsində müəyyən edilib. Faiz dəhlizinin parametrlərinə dair qərar qəbul olunarkən faktiki və proqnozlaşdırılan inflyasiyanın dinamikası, valyuta bazarında gedən proseslər, bank sektorunun likvidlik mövqeyinin dəyişimi, eləcə də qlobal monetar şəraitdə müşahidə olunan son meyillər nəzərə alınıb. Faiz dəhlizinin aşağı həddinin endirilməsi bank sektorunda izafi likvidlik şəraitində banklararası pul bazarında ticarətin təşviqinə yönəlib. Dəhlizin genişlənməsinin Mərkəzi Bankın pul bazarında iştirak səviyyəsini azaltmaqla bankların öz aralarında daha aktiv əməliyyatlar aparmasına sövq edəcəyi gözlənilir. Faiz dəhlizinin yuxarı həddinin və uçot dərəcəsinin sabit saxlanılması isə inflyasiya gözləntilərinin stabilləşdirilməsinə xidmət edir.



MB hesab edir ki, ölkədə illik inflyasiya hədəf diapazonu daxilindədir və baza ssenarisi üzrə proqnoz trayektoriyasına uyğun hərəkət edir. 2026-cı ilin avqust ayında 12 aylıq inflyasiya 5,7 faiz təşkil edib ki, bu da iyuldakı analoji göstəriciyə nəzərən 0,1 faiz bəndi aşağıdır. İllik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,2 faiz, ödənişli xidmətlər üzrə 5 faiz, qeyri-qida məhsulları üzrə isə 3,7 faiz olub. İllik baza inflyasiya 5,1 faiz təşkil edib. Ortamüddətli dövrdə illik inflyasiyanın hədəf diapazonu daxilində olacağı ilə bağlı proqnoz isə dəyişməz qalır.




### Mərkəzi Bank ehtiyatlarını tarixi maksimuma-15,3 milyard dollara yüksəldib

Cari ilin ötən dövründə valyuta bazarında təklif tələbi əhəmiyyətli dərəcədə üstələyib. Bu həm nağd, həm də qeyri-nağd seqmentlərdə özünü göstərib. 2026-cı ilin 8 ayında mübadilə məntəqələri tərəfindən nağd xarici valyutanın müştərilərdən alışı satışını 673 milyon dollar üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsi son 12 ayda 3,7 faiz bəndi azalaraq 2026-cı ilin iyulunda 25,8 faizə enib. Valyuta bazarında tələbin kəskin azaldığı, təklifin isə artdığı şəraitdə Mərkəzi Bank tərəfindən valyuta alışları həyata keçirilib. 8 ayda MB valyuta ehtiyatlarını 32,9 faiz artıraraq 15,3 milyard dollara yüksəldib. Bu, Mərkəzi Bankın valyuta ehtiyatları üzrə tarixi maksimum səviyyədir.

### İnflyasiya təzyiqlərinin artacağı gözlənilmir

Azərbaycanın xarici sektor göstəriciləri də əlverişli hesab edilir. Gömrük statistikasına görə, 2026-cı ilin yanvar-avqust aylarında ölkənin xarici ticarətində 10,4 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb. İlkin məlumatlara görə, yanvar-avqust aylarında pul baratları üzrə saldo 751 milyon dollar təşkil etməklə ötən ilin müvafiq dövrünə nəzərən 74,1 faiz artıb. Cari ildə qlobal enerji qiymətlərinin yüksəlməsi, eləcə də qeyri-neftqaz əmtəə və xidmətlər ixracı üzrə müsbət meyillərin davam etməsi ilə əlaqədar 2026-cı ilin sonuna cari əməliyyatlar hesabının profisiti üzrə proqnozunun artım istiqamətində dəyişməsi ehtimalı gözlənilir.

Mərkəzi Bankın proqnozlarına görə, inflyasiya üzrə risk balansında əhəmiyyətli dəyişiklik müşahidə edilmədiyindən qiymət indeksi bazarında sabitlik hökm sürəcək. Doğrudur, qlobal geosiyasi qeyri-müəyyənlik fonunda enerji və ərzaq qiymətlərinin artması, eləcə də bu artımın əsas ticarət tərəfdaşlarından daxili qiymətlərə ötürülməsi riski qalır. Bu ötürülmənin dərəcəsi digər amillərlə yanaşı, manatın nominal effektiv məzənnəsinin dinamikasından asılı olacaq. Mərkəzi Bankın növbəti aylarda inflyasiya proqnozlarının dəyişmə ehtimalı da məhz bu risklərin reallaşma miqyasına bağlıdır. Ancaq mövcud fiskal və pul siyasəti şəraitində daxili tələbin inflyasiya təzyiqlərini artıracağı gözlənilmir.

Cari ilin qalan dövründə də faiz dəhlizinə dair qərarlar inflyasiya proqnozu, əsas makroiqtisadi göstəricilərin dinamikası, valyuta bazarında gedən proseslər və bank sektorunda likvidliyin dinamikası nəzərə alınmaqla qəbul ediləcəkdir. Qlobal mühitdəki qeyri-müəyyənliklərin və onların daxili iqtisadiyyata ötürülmə intensivliyini nəzərə alaraq bundan sonra da makroiqtisadi göstəricilər üzrə proqnozlar bir neçə ssenari əsasında nəzərdən keçiriləcək.

*E.CƏFƏRLİ*

# BMT Baş katibindən çağırış...

## Antonio Quterreş növbəti dəfə islahatların zəruriliyini bəyan edib

BMT Baş Assambleyasının 81-ci sessiyasında təşkilatın Baş katibi Antonio Quterreş növbəti dəfə islahatların zəruriliyini bəyan edib. O, sessiyanın ümumi müzakirələrinin açılışındakı çıxışında deyib ki, Afrikanın daimi üzvlə təmsil olunmadığı BMT Təhlükəsizlik Şurasının hazırkı strukturu ədalətsiz və qəbuledilməzdir: "Afrikanın daimi təmsil olunmadığı XXI əsr Təhlükəsizlik Şurası, sadəcə, köhnəlmiş deyil, həm də ədalətsiz və müdafiəolunmazdır".

### "Texnoloji güc təhlükəsizliyə zəmanət verə bilməz"

Onun sözlərinə görə, şəbəkələşmiş gələcəyin qurulması, xüsusilə super dövlətlərin öz güclərinin o qədər də çox olmadığını və müəyyən hədlərin mövcudluğunu qəbul etməsi ilə başlayır. "Son illərin hadisələri bunu açıq şəkildə göstərdi. Hərbi güc təklikdə sülhü təmin edə, iqtisadi güc sabitliyi bərqərar edə, texnoloji güc isə təhlükəsizliyə zəmanət verə bilməz. Şəbəkələşmiş və çoxqütblü dünya qlobal problemlərin daha balanslı və təmsilçi şəkildə həlli üçün şərait yarada bilər. Lakin bunun üçün BMT-nin mərkəzində dayandığı, balanslı və ədalətli təmsilçiliyə əsaslanan çoxtərəfli sistem, həmçinin müasir dünya iqtisadiyyatlarının reallıqlarını və inkişafını əks etdirən güclü, səmərəli institutlar lazımdır", - deyə Quterreş vurğulayıb.

Baş katib Yaxın Şərqdə atəşkəsə və humanitar yardımların bərpa etməyə də çağırıb: "Gəlin, bu zaldan birlikdə aydın mesaj göndərək: Yaxın Şərqdə hərbi əməliyyatlara son qoyulmalı, humanitar yardımın maneəsiz çatdırılması təmin edilməli, beynəlxalq hüquqa uyğun olaraq gəmiçiliyin hüquq və azadlıqları tam şəkildə bərpa olunmalıdır".

Xatırladaq ki, A.Quterreş BMT-nin Baş Assambleyasında yüksəksəviyyəli müzakirələrdə Baş katib kimi son çıxışını edib. O, əvvəlki çıxışlarında da islahatları dəstəkləyib, rəhbərlik etdiyi təşkilatın modernləşdirilməsinə davam edən təkanların bir hissəsi olaraq, BMT-nin effektiv, qənaətcil və xidmət etdiyi insanlara cavabdeh olmasının təmin etmək məqsədilə islahatlara üstünlük verdiyini deyib. A.Quterreş vurğulayıb ki, islahatlar təkcə daxili proseslərlə bağlı deyil, həm də sülh, inkişaf və humanitar yardımda nəzərəçarpacaq təkmilləşdirməyə nail olmaq məqsədi daşıyır.



### Azərbaycan və Türkiyə bu məsələdə həmrəydir

Əslində, indiyədək dünyanın bir çox dövlətləri BMT-də islahatların aparılmasının zəruriliyini açıq şəkildə vurğulayırlar. Çünki BMT-nin dünyada nüfuzunu qorumaq naminə islahatların alternativi yoxdur. BMT Təhlükəsizlik Şurasında islahatların aparılması təklifi ilə ilk olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. BMT Baş Assambleyasının tribunasından "Dünya beşdən böyükdür!", - deyən Ərdoğan bu yöndə təşəbbüslərini müxtəlif platformalarda da səsləndirib. Türkiyə Prezidentinin fikrincə, BMT Təhlükəsizlik Şurasının inklüziv islahatı təcili ehtiyacdır. "Beş ölkə arasında bəşəriyyətin taleyini tələyə salan hazırkı nizam davamlı deyil", - deyə Rəcəb Tayyib Ərdoğan bəyan edib. Nəzərə almaq lazımdır ki, üzv ölkələrin iştirakçılığı və beynəlxalq hüququn təmin olunması ilə dünyada sülh və iqtisadi rifah naminə əməkdaşlıq BMT-nin əsas missiyalarından biridir və məhz sadalanan meyarlar qlobal səviyyədə uzunmüddətli təhlükəsizliyin əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyev də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin yenidən işlənməsini təklif edib. İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü olan ölkələrin də bu qurumda daimi təmsilçiliyinin vacibliyini vurğulayıb.

Həqiqətən də, beynəlxalq müstəvidə mövcud qlobal problemlər BMT Təhlükəsizlik Şurasında yeniliklərin edilməsini ciddi zərurətə çevirib. Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1945-ci ildə yaradılıb. Quruma 5 daimi üzv - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və 10 qeyri-daimi üzv daxildir. BMT daxilində islahatlardan və təşkilatın beynəlxalq hadisələrə, proseslərə effektiv təsir mexanizmlərinin yaradılmasından bəhs olunarkən bir sıra məqamlara nəzər salmaq lazımdır.

Bunlar, ilk növbədə, BMT Nizamnaməsində və Təhlükəsizlik Şurasının strukturunda dəyişikliklərin edilməsidir. Qeyd etdiyimiz kimi, ötən dövr ərzində dünyada baş verən hadisələr BMT-də islahatların zəruri olduğunu bir daha təsdiqləyir. Çünki təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də Təhlükəsizlik Şurasında yer alan daimi üzvlər istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Onlar veto hüququndan istifadə edərək subyektiv şəkildə öz maraqlarına uyğun olmayan məsələlərin qəbulunu əngəlləyirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Bundan əlavə, BMT Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Bu barədə kifayət qədər nümunə var. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal icra edilməsi, sülhə məcburetmə mexanizmlərinin tətbiqi ilə əlaqədar Bosniya və Herseqovina, Yuqoslaviya, Liviya və digər presedentlər mövcuddur.

### BMT TŞ-nin qətnamələrinin icrası üçün yeni mexanizmlər olmalıdır

Lakin Azərbaycana münasibətdə Ermənistanın işğal etdiyi torpaqlarımızı qeyd-şərtsiz azad etməsi ilə bağlı 1993-cü ildə qəbul olunmuş dörd qətnamə 27 il kağız üzərində qaldı. 2020-ci ildə Azərbaycan öz gücü ilə həmin qətnamələrin icrasını təmin etdi. Bir müddət öncə Prezident İlham Əliyev Bişkek şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə çıxışı zamanı da bu məsələyə toxunaraq deyib: "Təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər. Son vaxtlara qədər dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etmiş Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək", - deyə ölkə başçısı çıxışında vurğulayıb.

Göründüyü kimi, dünyada nüfuzunun yüksəlməsi, münaqişələrin həllində təsirli imkanlara malik olması və ikili yanaşmalara son qoyulması üçün BMT strukturlarında islahatların aparılması zərurətdir.

*Nardar BAYRAMLI*

# Vaşinqton Qrenlandiya ilə bağlı məqsədlərinə çatdı

## İmzalanan saziş ABŞ-a dünyanın ən böyük adası üzərində müstəsna hüquqlar verir

BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Qrenlandiya ilə bağlı vacib addım atılıb. Belə ki, ABŞ Prezidenti Donald Tramp, Danimarkanın Baş naziri Mette Frederiksen və Qrenlandiyanın Baş naziri Yens-Frederik Nilsen tərəfindən adanın təhlükəsizliyinə dair yeni saziş imzalanıb. Razılaşma Arktikada təhlükəsizliyin gücləndirilməsini və ABŞ-ın Qrenlandiyadakı hərbi imkanlarının genişləndirilməsini nəzərdə tutur. Tramp saziş çərçivəsində Qrenlandiyada ABŞ-ın yeni iki böyük hərbi bazasının yaradılacağını bildirib. Danimarka və Qrenlandiya tərəfi razılaşmanın Danimarkanın suverenliyinə, eləcə də Qrenlandiyanın öz müqəddəratını təyinetmə hüququna təsir etmədiyini vurğulayıb.

### ABŞ hərbi qüvvələri adada maneəsiz hərəkət edəcək

ABŞ hərbi təyyarələri və gəmiləri yeni təhlükəsizlik sazişinə görə Qrenlandiyanın hava məkanına və ərazi sularına sərbəst giriş əldə edəcək. Ağ Ev tərəfindən açıqlanan sazişə əsasən, ABŞ hərbi qüvvələri, gəmiləri və təyyarələri Qrenlandiyanın ərazi suları, quru və hava məkanı da daxil olmaqla, müdafiə obyektlərinə maneəsiz giriş və onlar arasında hərəkət etmək hüququna malik olacaq. Sənəddə ABŞ təyyarələrinin Qrenlandiyanın istənilən hissəsi üzərindən uçmasına və oraya enməsinə, hərbi gəmilərin isə razılaşdırılmış hallar istisna olmaqla, ərazi sularında məhdudiyyətsiz hərəkət etməsinə imkan veriləcəyi bildirilir.

Donald Tramp hələ sentyabrın 19-da "Truth" sosial şəbəkəsindəki hesabında paylaşım edərək ölkəsinin Danimarka Krallığı və Qrenlandiya ilə yeni saziş bağladığını açıqlamışdı. Onun sözlərinə görə, saziş ABŞ-a Qrenlandiyanın təhlükəsizliyi və digər zəruri sahələr üzərində daimi nəzarət imkanı verir və bunun Vaşinqton üçün əlavə maliyyə xərci olmayacaq: "ABŞ Qrenlandiyanın və özünün təhlükəsizliyini təmin etmək üçün orada zəruri olan bütün tədbirləri həmişə həyata keçirmək imkanına malik olacaq". Tramp qeyd edib ki, bundan sonra ABŞ-ın yazılı razılığı olmadan heç bir rəqib dövlət Qrenlandiyada hərbi baza yarada, hərbi qüvvə yerləşdirə və ya həssas sahələrə sərmayə yatıra bilməyəcək. O, razılaşmanın müddətsiz olduğunu və qüvvədə olma müddətinin başa çatmayacağını vurğulayıb. ABŞ Prezidenti, həmçinin Qrenlandiyanın uyğun ərazilərində genişmiqyaslı Amerika hərbi mövcudluğunun yaradılması prosesinə dərhal başlanacağını, infrastrukturun inkişafı və tikinti işlərinin yerli əhali ilə əməkdaşlıq şəraitində aparılacağını bildirib.




Xatırladaq ki, D.Tramp ikinci dəfə prezident seçildikdən sonra bir sıra ərazi iddiaları ilə çıxış edib. Onlardan biri də Qrenlandiyanın ABŞ-ın tərkibinə qatılması idi. Ağ Ev rəhbəri mövqeyini Rusiya və Çin təhlükəsi ilə əsaslandırır: "Əgər Qrenlandiyanı almasaq, Rusiya və ya Çin alacaq. Mən buna icazə verməyəcəyəm". O bildirmişdi ki, ABŞ Qrenlandiyanı bu və ya digər şəkildə əldə edəcək. "Qrenlandiya razılaşmanı bağlamalıdır, çünki Qrenlandiya da Rusiyanın və ya Çinin onu ələ keçirməsini istəmir. Onların müdafiəsi əsasən iki it qoşulmuş xizəkdən ibarətdir" - deyə ABŞ Prezidenti iddia etmişdi. Qrenlandiya və NATO-nun belə bir addıma qarşı çıxması və bunun NATO-nu təhlükə altına qoya biləcəyi ilə bağlı suala cavabında Tramp deyib ki, əgər o, prezident olmasaydı, NATO mövcud olmazdı: "NATO-nun ABŞ-a daha çox ehtiyacı var".



### ABŞ indiki torpaq sahələrinin təxminən 40 faizini pulla alıb

Əslində, indiyədək Qrenlandiyanın ABŞ-a qoşulması üçün müxtəlif yolların olduğu variantlar ortaya atılırdı. Bu variantların arasında məcburiyyət, assosiasiya müqaviləsi və Qrenlandiyanın Danimarkanın bir hissəsi olaraq qalması şərtilə orada ABŞ-ın hərbi təmsilçiliyi yer alırdı. Hətta Danimarkadan Qrenlandiyanın satın alınması da istisna edilmirdi. Bu ilin yanvarında "The Wall Street Journal" qəzeti isə yazmışdı ki, dövlət katibi Marko Rubio Konqresə Vaşinqtonun Qrenlandiyanı pulla satın almaq niyyətində olduğunu bildirib. Tarixdə də belə presedentlər mövcuddur. Ərazisinə görə dünyanın ən böyük ölkələrindən biri olan ABŞ indiki torpaq sahələrinin təxminən 40 faizini pulla alıb. Başqa sözlə, ABŞ ərazini genişləndirmək üçün müharibə eləməkdən çox, pul ödəməyi daha üstün tutub. Belə ki, ABŞ 1803-cü ildə Fransadan 15 milyon ABŞ dolları qarşılığında indiki Luiziana ştatını satın alıb. Prezident Tomas Ceffersonun dövründə reallaşan bu alqı-satqı nəticəsində Birləşmiş Ştatlar öz torpaqlarını təxminən 2,14 milyon kvadratkilometr artıraraq ərazisini iki dəfə böyütdü və Missisipi çayı üzərində tam nəzarəti əldə etdi. 1819-cu ildə isə İspaniyadan hazırki Florida ştatı alındı. Adams-Onis Müqaviləsi ilə reallaşan bu alqı-satqı nəticəsində Vaşinqton ABŞ-ın İspaniyaya qarşı 5 milyonluq iddiasından geri çəkildi. Ərazinin rəsmi keçidi isə 1821-ci ildə baş tutdu. Bunun nəticəsində ABŞ özünün cənub sərhədlərini təhlükəsizləşdirdi, eləcə də, Atlantik-Meksika körfəzi xəttini möhkəmləndirdi.

1853-cü ildə Meksikadan 10 milyon dollar qarşılığında Qadsden alışı həyata keçirilib. Bu, indiki Arizona və Nyu-Meksikonun cənubunu əhatə edir - ABŞ bu addımı ilə dəmir yolu xətlərinin çəkilişi üçün strateji imkan qazandı, ABŞ - Meksika sərhədi indiki formasını aldı. 1867-ci ildə isə ABŞ Rusiyadan Alyaskanı satın aldı. 7,2 milyon dollar dəyərində əldə edilən torpaq sahəsi 1,52 milyon kvadratkilometr idi. Prezident Endryu Conson dövründə edilən bu alqı-satqı sonrakı dövrlərdə Vaşinqtona nəhəng neft, qaz, qızıl yataqları və təbii sərvətlər qazandırdı. ABŞ bu yolla Arktikada və Sakit okeanda mövqelərini gücləndirdi.

### Ada faktiki olaraq Vaşinqtonun nəzarətinə keçir

Nəhayət, 1917-ci ildə ABŞ Danimarkadan Virgin adalarını satın aldı. 25 milyon dollar (qızıl ekvivalentində) əldə olunan ərazilərə Karib dənizi hövzəsindəki Virgin adaları daxil idi. Bunun nəticəsində isə Birinci Dünya müharibəsi fonunda Almaniyanın bölgəyə nəzarətinin qarşısı alındı, ABŞ-ın Karib hövzəsində hərbi-strateji mövqeyi gücləndi. Beləliklə, son 200 ildə ABŞ pulla əldə etdiyi ərazilər hesabına Atlantikdən Sakit okeana qədər uzanan qitə dövləti oldu, enerji, nəqliyyat və hərbi baxımdan üstünlük qazandı, geosiyasi təsirini mərhələli şəkildə qlobal səviyyəyə çıxardı.

D.Trampın Qrenlandiyaya iddiaları Avropa İttifaqı və NATO daxilində müəyyən gərginliklər yaratmışdı. Lakin Nyu-Yorkda imzalanan saziş problemləri həll etmiş oldu. Sənədə əsasən Danimarkanın suverenliyi və Qrenlandiyanın öz müqəddəratını təyinetmə hüququ de-yure qorunsa da, əslində faktiki olaraq ada Vaşinqtonun nəzarətinə keçir. Bununla da, D.Tramp ərazisi 2,166 milyon kvadrat kilometr, əhalisi 50 min olan dünyanın ən böyük adası Qrenlandiya ilə bağlı məqsədinə çatmış oldu.

*N.BAYRAMLI*

# Şimalda buzlar yox, maraqlar toqquşacaq...

## Qütb uğrunda qütbləşmə güclənir: soyuq Arktikada isti mübarizə

Dünyada geosiyasi qarşıdurmaların dərinləşdiyi, güc mərkəzləri arasında rəqabətin yeni coğrafiyalara yayıldığı bir vaxtda diqqətlər tədricən planetin ən ucqar bölgələrindən birinə - Arktikaya yönəlir. Vaxtilə əsasən elmi araşdırmaların, ekoloji problemlərin və beynəlxalq əməkdaşlığın məkanı kimi qəbul edilən bu region indi təhlükəsizlik, enerji, nəqliyyat və strateji üstünlük məsələlərinin kəsişdiyi əraziyə çevrilir. Avropada Rusiyanın Ukraynaya qarşı müharibəsindən sonra "Şimaldan aşağı gərginlik" yanaşmasının əvvəlki əhəmiyyətini itirdiyi, regionda hərbiləşmənin və təhlükəsizlik rəqabətinin artdığı müşahidə olunur.

### Kim şimala sahib olsa...

Qeyd edək ki, Arktikanın əhəmiyyətini artıran əsas amillərdən biri iqlim dəyişiklikləri nəticəsində buz örtüyünün azalmasıdır. Bu proses yeni dəniz marşrutlarının istifadəsini asanlaşdırmaqla yanaşı, əvvəllər əlçatmaz olan enerji ehtiyatlarına və kritik mineral resurslara çıxış imkanlarını da artırır. Beləliklə, Arktika artıq yalnız coğrafi məkan deyil, gələcək qlobal iqtisadiyyat və logistika üzərində təsir imkanları baxımından strateji üstünlük zonası kimi nəzərdən keçirilir. Qərb regionun Şimali Atlantika ilə Avropa arasındakı mühüm nəqliyyat və kommunikasiya bağlantılarının üzərində yerləşdiyini nəzərə alaraq şimal qütbündə nüfuz dairəsini genişləndirməyə çalışır. Siyasi mütəxəssislərin fikrincə, bu reallıq böyük güclərin Şimala marağını sürətləndirir. Rusiya Arktikadakı hərbi infrastrukturunu genişləndirir, NATO isə Finlandiya və İsveçin alyansa qoşulmasından sonra regiondakı müdafiə imkanlarını gücləndirir. Xüsusilə, ABŞ üçün Qrenlandiyanın strateji mövqeyi və Arktikaya çıxış xüsusi əhəmiyyət daşıyır. Bütün bunlar göstərir ki, Arktika XXI əsrin geosiyasi rəqabətinin yeni istiqamətlərindən birinə çevrilir. Sual artıq yalnız "Şimalda kim daha çox resursa malikdir?" deyil, kim bu resurslara, marşrutlara və strateji məkanlara daha geniş çıxış əldə edəcək məsələsidir. Məhz buna görə Arktikada başlayan proseslər gələcəkdə qlobal güc balansına ciddi təsir göstərə bilər.

### Mənzərə qatılaşır - Qərb Qərbə qarşı...

Diqqət çəkən məqamlardan biri isə, şimal qütbü uğrunda başlanan savaşın da bircinsli olmamasıdır - yəni, mübarizə heç də gözənildiyi kimi Rusiya-NATO və ya Rusiya - Qərb statusunda aparılmır. Burada daha çox elə Qərb kontingentinin ayrı-ayrılıqda koalisiya şəklində qarşılıqlı mübarizəsi nəzərə çarpır. Yeri gəlmişkən, ABŞ, Yaponiya və Koreya Respublikası da dəniz sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və iqtisadi layihələrin həyata keçirilməsi məqsədilə Arktika regionunda üçtərəfli tərəfdaşlıq barədə razılığa gəlib. Bu barədə ABŞ Dövlət katibi Marko Rubio "X" sosial şəbəkəsində bildirib. "Bu gün ABŞ, Yaponiya və Koreya Respublikası dənizdə əməkdaşlığı inkişaf etdirmək, həmçinin energetika və infrastruktur da daxil olmaqla, iqtisadi layihələri həyata keçirmək üçün Arktika regionunda üçtərəfli tərəfdaşlıq qurdu", - o yazıb.

Rubio qeyd edib ki, bu tərəfdaşlığın gələcək inkişafı üçün Yaponiya və Cənubi Koreyanın xarici işlər nazirləri ilə sıx qarşılıqlı fəaliyyət göstərəcəyinə ümid edir.

### Aİ hərəkətə keçir: köhnə qitə yeni arzularla yaşayır...

Xatırladaq ki, bir müddət öncə Avropa İttifaqı ölkələri Arktikada strateji maraqlarının qorunması və regionda təhlükəsizliyin gücləndirilməsi məqsədilə qurum çərçivəsində fəaliyyətlərini artırmaq barədə razılığa gəlmişdilər. Bu barədə Finlandiyanın Rovaniemi şəhərində keçirilən Avropa Arktika Sammitinin yekunlarına dair birgə bəyanatda bildirilmişdi. Aİ-nin 12 üzvünün yüksəksəviyyəli nümayəndələrinin qatıldığı görüşdə qurumun Arktikanın Avropa hissəsində daha strateji və fəal siyasət yürütməsinin vacibliyi vurğulanırdı. Tərəflər monitorinq və informasiya mübadiləsinin gücləndirilməsi, vahid vəziyyət mənzərəsinin yaradılması, nəqliyyat və rəqəmsal infrastruktura, hərbi mobilliyə, eləcə də kritik obyektlərin qorunmasına investisiyaların artırılmasını dəstəkləmişdilər. Bundan başqa, Rusiyanın Avropaya qarşı hibrid fəaliyyətlərinin artması region üçün əsas təhdidlərdən biri kimi göstərilmişdi. Çinin artan marağı, Ukraynadakı müharibənin nəticələri və iqlim dəyişiklikləri də Arktikada geosiyasi vəziyyəti dəyişdirən amillər kimi qeyd olunmuşdu. Aİ Şurasının Prezidenti Antonio Koşta Sammitdən sonra açıqlamasında bildirmişdi ki, Arktikanın təhlükəsizliyi Avropanın təhlükəsizliyidir. Onun sözlərinə görə, yeni geosiyasi reallıq Aİ-nin gələcək uzunmüddətli büdcəsində təhlükəsizliyə və müdafiəyə, o cümlədən Arktika regionuna yatırımların artırılmasında əksini tapacaq. Sammitin iştirakçıları Arktikada təhlükəsizliyin möhkəmləndirilməsi ilə yanaşı, kritik xammal ehtiyatları, gəmiçilik, kosmik sənaye və rəqəmsal bağlantı sahələrində iqtisadi imkanların daha səmərəli istifadəsini də nəzərdə tuturdular.

Arktikanın geosiyasi əhəmiyyətinin sürətlə artması Qərb dövlətlərini bu regionda ayrıca əməkdaşlıq formatları yaratmağa sövq edir. Qərb siyasi mütəxəssisləri 12 Avropa İttifaqı ölkəsinin Arktikada daha strateji

### Qərbin Arktika siyasətində yeni koalisiyalar: rəqabət dərinləşir

və fəal siyasət yürütməyə çağırışını təsadüfi təşəbbüs hesab etmir. Avropa Parlamentinin Araşdırma Xidməti də Arktikada təhlükəsizlik vəziyyətinin dəyişdiyini, hərbiləşmənin və geosiyasi rəqabətin artdığını bildirir. Yəni, bu çağırış əslində ümumavropa maraqlarından qaynaqlanır. Başqa sözlə, burada köhnə qitənin ön plana çıxmaq istəyi açıq əşkildə müşahidə olunur.

Digər tərəfdən, ABŞ, Yaponiya və Cənubi Koreya da Arktikaya maraqlarını ayrıca üçtərəfli əməkdaşlıq müstəvisinə çıxarması da mənafelərin toqquşmasının göstəricisidir. Xatırladaq ki, hələ iyulda Vaşinqton, Tokio və Seul Arktika məsələləri üzrə müzakirələri genişləndirmək barədə razılığa gəlmişdilər. Cənubi Koreya XİN-i isə məlumat yaymışdı ki, tərəflər artıq 2026-cı ilin fevralında Arktika əməkdaşlığının mümkün istiqamətlərini müzakirə ediblər. Yəni, Arktika müzakirələrində "separat danışıqlar"ın tarixi bir neçə ay əvvələ dayanır.

Bütün bunlar Qərbin vahid siyasi-müdafiə xəttindən daha çox, Arktikada paralel və bir-birini tamamlayan təhlükəsizlik şəbəkələri yaratmağa başladığını göstərir. Fridtjof Nansen İnstitutunun tədqiqatçıları Andreas Raspotnik və Andreas Osthagen hesab edirlər ki, Aİ-nin Arktikadakı mövqeyinin gücləndirilməsi üçün Norveç, İslandiya və Böyük Britaniya kimi üzv olmayan tərəfdaşlarla daha formal mexanizmlər qurulmalıdır. CSIS ekspertləri isə Avropa Arktikasının artıq böyük güclər arasında geosiyasi rəqabətin mühüm teatrına çevrildiyini vurğulayırlar.

Göründüyu kimi, siyasi təhlilçilər müzakirə predmetlərini yalnız resurslarla məhdudlaşdırmır. Dəniz yollarına nəzarət, enerji və kritik minerallar, peyk və rabitə infrastrukturu, sualtı kommunikasiyalar, hərbi müşahidə imkanları və Şimali Atlantika ilə Sakit okean arasındakı strateji bağlantılar da rəqabətin predmetinə çevrilir. Nəticədə Arktikada müxtəlif Qərb formatlarının çoxalması regionu əməkdaşlıq məkanından bloklararası rəqabətin yeni cəbhəsinə çevirmək riskini artırır.



Qərb dövlətlərinin Arktikada mövqelərini möhkəmləndirməsi Moskva və Pekinin də regiondakı əməkdaşlığını daha strateji xarakterə gətirə bilər. Çin Arktikada əraziyə malik dövlət deyil, lakin özünü "Arktikaya yaxın dövlət" kimi təqdim edir. Onun əsas üstünlüyü iqtisadi və texnoloji imkanlarıdır. Rusi-

### Rusiya-Çin tandemi Arktikada yeni qüvvə mərkəzi yaradacaq?

yanın üstünlüyü isə coğrafiyadır: Arktika sahillərinin yarıdan çoxu Rusiyanın payına düşür və Şimal Dəniz Yolu əsasən Rusiya nəzarətində olan sulardan keçir. Bu səbəbdən Çin üçün Moskva Arktikaya iqtisadi və logistika çıxışının ən mühüm vasitələrindən biridir.

Sinqapurun S. Rajaratnam Beynəlxalq Araşdırmalar Məktəbinin tədqiqatçısı Daniel Balazsın fikrincə, Çin və Rusiyanın Arktikadakı əməkdaşlığı artıq yalnız enerji və ticarətlə məhdudlaşmır; təhlükəsizlik, elmi tədqiqat, dəniz və hava fəaliyyətləri də bu əməkdaşlığın tərkibinə daxil olur. O, Moskvanın Çinin iqtisadi imkanlarına, Pekinin isə Rusiyanın coğrafi üstünlüklərinə ehtiyac duyduğunu qeyd edir. 2026-cı ildə Rusiya və Çinin Arktikada birgə dəniz və hava patrullarının keçirilməsi də bu tendensiyanın təhlükəsizlik ölçüsünü gücləndirib.

NATO da Rusiya-Çin əməkdaşlığının Arktikadakı strateji nəticələrinə diqqət çəkir. Alyansın rəsmi qiymətləndirməsində Çinin enerji, kritik minerallar və dəniz kommunikasiyalarına çıxış imkanlarını genişləndirməyə çalışdığı, Rusiya ilə əməkdaşlığının isə NATO üçün ayrıca strateji və əməliyyat nəticələri doğurduğu bildirilir.

Lakin siyasi mütəxəssislər mövzunu dərhal "Rusiya-Çin hərbi ittifaqı" kimi təqdim etməyin də düzgün olmadığı qənaətindədirlər. Pekinin Moskva ilə əməkdaşlığında iqtisadi maraqlar, enerji təminatı və Şimal Dəniz Yolundan istifadə xüsusi yer tutur. Bununla belə, Qərbin Arktikada hərbi-siyasi fəallığının artması bu əməkdaşlığın təhlükəsizlik komponentini gücləndirə bilər. Belə bir proses baş verərsə, Arktikada şərti olaraq Rusiya-Çin və ABŞ - Şərq bloku, eləcə də Aİ mərkəzləri arasında qarşılıqlı çəkindirmə və rəqabət sistemi formalaşa bilər. Bu isə regionu təkcə Şimalın deyil, qlobal güc balansının əsas istiqamətlərindən birinə çevirər.

### Şimal uğrunda rəqabət nüvə qarşıdurması riskini artıra bilərmi?

Qərb politoloqları Arktika uğrunda rəqabətin ən təhlükəli tərəfini regionun Rusiyanın nüvə çəkindirmə sistemində xüsusi yer tutması ilə əlaqələndirirlər. Çünki Rusiyanın dəniz əsaslı strateji nüvə qüvvələrinin mühüm hissəsi Arktikadakı Kola yarımadasında yerləşir. 2026-cı il üzrə açıq mənbəli nüvə qiymətləndirmələrinə görə, Rusiyanın dəniz əsaslı nüvə qüvvələrinin təxminən üçdə ikisi Kola yarımadası ilə əlaqəlidir. Burada Şimal Donanmasının bazaları və ballistik raket daşıyan nüvə sualtı qayıqları yerləşir. Məhz buna görə Arktikada hərbi müşahidənin, sualtı qayıq axtarışının və hərbi patrulların artması Moskva tərəfindən sadəcə adi regional rəqabət kimi qəbul edilməyə bilər. "Foreign Policy Research Institute"nin əməkdaşı Karl Parkin qeyd edir ki, Rusiyanın nüvə sualtı qayıqları Kola yarımadasında yerləşən strateji "bastion" sistemi ilə qorunur və Arktikanın dəyişən şəraiti gələcəkdə bu qüvvələrin aşkarlanması imkanlarına təsir göstərə bilər. O, belə proseslərin Rusiyada "istifadə et, ya da itir" məntiqini gücləndirə biləcəyinə dair riskə diqqət çəkir.

"Bulletin of the Atomic Scientists"də Nikita Qryazin və İren Marinova isə Arktikada iqlim dəyişikliyi, hərbi rəqabət və nüvə təhlükəsinin artıq bir-birindən ayrı proseslər kimi nəzərdən keçirilə bilməyəcəyini yazırlar. Onların fikrincə, buz örtüyünün azalması sualtı qayıqların aşkarlanması imkanlarını dəyişdirir, hərbi gəmilərin qarşılaşma ehtimalını artırır və yanlış hesablamalar üçün yeni risklər yaradır. Eyni zamanda Finlandiya və İsveçin NATO-ya daxil olması Arktikanın təhlükəsizlik arxitekturasını da dəyişib.

Bu səbəbdən Arktikada mümkün "yeni soyuq müharibə"nin ən təhlükəli xüsusiyyəti onun klassik Şərq-Qərb qarşıdurmasından fərqli olaraq nüvə çəkindirmə sistemlərinin birbaşa təmas zonasına yaxınlaşmasıdır. Lakin bu, avtomatik olaraq nüvə müharibəsinin baş verəcəyi anlamına da gəlmir. Əksinə, tərəflərin əsas məqsədi nüvə silahından istifadə etmədən qarşı tərəfin strateji imkanlarını məhdudlaşdırmaq və çəkindirmə yaratmaq ola bilər. Təhlükə daha çox yanlış hesablama, insident və eskalasiyanın nəzarətdən çıxması ssenarisində yaranır. Buna görə Arktikada hərbi fəaliyyətin artması ilə paralel olaraq böhran kommunikasiyası və risklərin azaldılması mexanizmlərinin saxlanılması xüsusi əhəmiyyət qazanır.

### Şimalda yeni güc balansının konturları

Arktikada baş verən proseslər göstərir ki, dünya siyasətində strateji rəqabətin coğrafiyası artıq ənənəvi regionlarla məhdudlaşmır. Buzlaqların geri çəkilməsi yeni dəniz yollarını, enerji mənbələrini və mineral ehtiyatları daha əlçatan etdikcə Şimalın iqtisadi əhəmiyyəti artır; eyni zamanda regionun hərbi-strateji çəkisi də yüksəlir. Avropa İttifaqının daha fəal Arktika siyasətinə keçməsi, ABŞ-Yaponiya-Cənubi Koreya formatında Arktika məsələlərinin gündəmə gəlməsi, NATO-nun "Arctic Sentry" fəaliyyətini başlaması və Rusiya-Çin əməkdaşlığının genişlənməsi bu dəyişimin ayrı-ayrı təzahürləridir.

Siyasi texnoloqların düşüncəsinə görə, burada ən mühüm məsələ Arktikanın hansı dövlətin "mülkiyyəti"nə çevrilməsi deyil. Beynəlxalq hüquq baxımından regionda ərazi və dəniz hüquqları ayrıca rejimlərlə tənzimlənir. Xatırladaq ki, Arktika coğrafi baxımdan səkkiz dövlətin - Rusiya, ABŞ, Kanada, Danimarka, Norveç, İsveç, Finlandiya və İslandiyanın nüfuz dairəsindədir. Lakin bu ölkələrin regiondakı imkanları eyni deyil. Arktika ərazilərinin təxminən yarısına malik olan Rusiya həm coğrafi miqyas, həm də hərbi infrastruktur baxımından açıq üstünlüyə sahibdir. Rusiya 2000-ci illərin ortalarından etibarən Sovet dövründən qalmış hərbi obyektlərini yenidən qurub, hava hücumundan müdafiə, radar, aviasiya və dəniz qüvvələrinin imkanlarını artırıb. Əsas məsələ gələcəkdə kimlərin qaydaları müəyyənləşdirəcəyi, dəniz yollarından kimlərin hansı şərtlərlə istifadə edəcəyi, resurslara çıxışın necə bölüşdürüləcəyi və təhlükəsizlik mexanizmlərinin hansı prinsiplər əsasında qurulacağıdır.

Qərb siyasətçiləri bildirirlər ki, Arktika uğrunda rəqabət iki istiqamətdə inkişaf edə bilər:

- Birinci istiqamət rəqabətin idarə olunması, beynəlxalq hüquq, dəniz təhlükəsizliyi, elmi əməkdaşlıq və risklərin azaldılması mexanizmlərinin qorunmasıdır.
- İkinci istiqamət isə regionun tədricən hərbiləşməsi, qarşılıqlı bloklaşmanın dərinləşməsi və nüvə çəkindirmə sistemlərinin birbirinə daha yaxın məsafədə yerləşməsi ola bilər. Sonuncu ssenari yalnız Arktika ölkələri üçün deyil, bütövlükdə beynəlxalq təhlükəsizlik sistemi üçün ciddi nəticələr yarada bilər.

Ona görə də qarşıdakı illərdə Şimaldakı proseslərə yalnız iqlim və resurs məsələsi kimi baxmaq kifayət etməyəcək. Arktika enerji, logistika, hərbi təhlükəsizlik, nüvə çəkindirməsi və böyük güclər arasında strateji rəqabətin kəsişdiyi məkan kimi daha çox diqqət çəkəcək. Bu rəqabətin hansı istiqamətə yönəlməsi isə böyük ölçüdə dövlətlərin qarşılıqlı çəkindirmə ilə yanaşı dialoq və risklərin idarə olunması mexanizmlərini nə dərəcədə qoruyub saxlamasından asılı olacaq.

*Pərviz SADAYOĞLU*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Ucuzluğun cazibəsi və keyfiyyət sınağı



## Trendyol və Temu müqayisəsi...

Bir vaxtlar alış-veriş üçün mağaza-mağaza gəzdiyimiz halda indi demək olar ki, mağazalar əlimizin içindədir. Bir neçə dəqiqə ərzində yüzlərlə məhsula baxır, qiymətləri müqayisə edir, rəyləri oxuyur və sifarişi bir neçə toxunuşla tamamlayırıq. Amma bu rahatlığın içində başqa bir sual gizlənir: ucuz olan məhsul həqiqətən sərfəli və keyfiyyətlidirmi?

Son illər ölkəmizdəki istehlakçıların onlayn alış-veriş ünvanları arasında iki ad xüsusilə diqqət çəkir: Trendyol və Temu. Hər ikisi nəhəng məhsul çeşidi, kampaniyalar və cəlbedici qiymətlərlə alıcını özünə çəkir: Hər iki tətbiqdə saatlarla “gəzmək”, səbətə məhsul əlavə etmək və istədiyimiz məhsulu tapmaq mümkündür.

Amma bu iki platformanı tərəzinin iki gözünə qoyanda mənzərə o qədər də eyni görünmür. Bir tərəfdə qiyməti ilə heyrətləndirən Temu, digər tərəfdə isə keyfiyyət, marka seçimi və daha formalaşmış alış-veriş təcrübəsi ilə seçilən Trendyol dayanır.

**Hansını seçək?**

Temunun ən böyük “silahı” qiymətdir. Bəzən istifadəçilər məhsulun qiymətini görəndə istər-istəməz eyni sualı verir: “Bu qədər ucuz necə ola bilər?”. Məhz bu sual Temunun marketinq strategiyasının ən güclü tərəflərindən biridir.

Platformada geyimdən ev əşyalarına, telefon aksesuarlarından müxtəlif gündəlik məhsullara qədər çox geniş çeşid təqdim olunur. Qiymətlər isə bir çox hallarda ənənəvi mağazalarla müqayisədə olduqca aşağı görünür. Bu da xüsusilə büdcəsinə qənaət etmək istəyən istehlakçıları cəlb edir.

Temunun məntiqi sadədir: daha çox məhsul, daha aşağı qiymət və daha çox alış-veriş. Lakin qiymət aşağı düşdükcə alıcının üzərinə başqa bir məsuliyyət düşür: məhsulu daha diqqətlə seçmək. Çünki Temuda eyni məhsul kateqoriyasında keyfiyyət baxımından ciddi fərqlər ola bilər. Şəkildə çox cəlbedici görünən məhsul real həyatda gözlənilən təsiri yaratmaya bilər. Xüsusilə, geyim, ayaqqabı, elektronika və uzunmüddətli istifadə üçün nəzərdə tutulan məhsullarda bu məsələ daha çox əhəmiyyət daşıyır. Yəni,

## Alıcı hansına üstünlük verməlidir?

Temuda ucuz məhsul tapmaq asandır, ən yaxşısını tapmaq isə bir qədər çox araşdırma tələb edir.

Trendyolun əsas üstünlüyü isə yalnız məhsul sayında deyil. Platforma xüsusilə Türkiyənin geniş moda və pərakəndə sektorunu onlayn alış-verişlə birləşdirərək böyük istehlakçı auditoriyası formalaşdırıb. Geyim, ayaqqabı, kosmetika, ev əşyaları və gündəlik istifadə məhsullarında tanınmış markaların geniş seçimi alıcı üçün əlavə üstünlük yaradır.

Burada istehlakçının diqqət etdiyi başqa bir məsələ də var: məhsulun nə qədər keyfiyyətli olması. Alıcı 10 manata bir məhsul alıb bir neçə həftə sonra yenisini almaqdansa, 20-30 manat ödəyərək daha keyfiyyətli və uzunömürlü məhsul əldə etməyə üstünlük verə bilər. Bu halda kağız üzərində baha görünən məhsul əslində daha sərfəli seçimə çevrilir.

Trendyolun üstünlüyü məhz burada hiss olunur. Satıcı reytinqləri, istifadəçi rəyləri, məhsul haqqında məlumatlar, müxtəlif marka seçimləri və alıcı təcrübəsinin daha geniş olması istehlakçının qərarını nisbətən asanlaşdırır. Bu səbəbdən Trendyolun qiyməti bəzi hallarda Temudan yüksək olsa da, keyfiyyət baxımından daha etibarlı seçim təsiri yaradır.

## “Onsuz da ucuzdur”

Onlayn alış-verişin psixologiyasında maraqlı bir məqam var. İnsan 100 manatlıq məhsulu alarkən uzun müddət düşünür. Amma 3-5 manatlıq məhsulu səbətə əlavə edəndə eyni tərəddüdü göstərmir. “Onsuz da ucuzdur” düşüncəsi səbəti böyüdür. Bir məhsul beş məhsula, beş məhsul on məhsula çevrilir. Nəticədə alıcı əvvəlcə qənaət etdiyini düşünür, amma sifarişin sonunda kifayət qədər böyük məbləğ ödəyir. Temu bu baxımdan xüsusilə maraqlı nümunədir. Platformadakı çoxsaylı ucuz məhsullar istifadəçidə “fürsəti qaçırmayım” hissi yarada bilər.

Trendyolda da endirimlər və kampaniyalar alıcını alış-verişə təşviq edir. Lakin burada daha çox marka, məhsul və qiymət müqayisəsi aparmaq imkanı alıcının seçim prosesini fərqli istiqamətə yönəldə bilir.

## Bu məhsulun seçimi daha çətindir...

Geyim alarkən məsələ bir qədər də mürəkkəbləşir. İnternet üzərindən paltarın materialına toxunmaq, tikişinə baxmaq, ölçüsünü yoxlamaq mümkün deyil. Ekranda ideal görünən məhsulun real həyatda necə görünəcəyini əvvəlcədən dəqiq bilmək çətindir. Bu baxımdan alıcı rəyləri xüsusi əhəmiyyət daşıyır.

Trendyolda geyim və moda məhsullarının geniş yer tutması, müxtəlif markaların təqdim edilməsi və alıcıların məhsullar barədə yazdığı rəylər seçim prosesində üstünlük yaradır.

Temuda isə qiymət cazibəsi daha güclüdür. Lakin burada alıcının məhsulun ölçüsünü, materialını, satıcı məlumatlarını və istifadəçi rəylərini daha diqqətlə yoxlaması məsləhətdir.

## Trendyolun üstünlüyü etibardır!

Marketinq üzrə ekspert Nurlan Hüseynli “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, marketinq baxımından Trendyol və Temunun uğuru təsadüfi deyil. Onun sözlərinə görə, hər iki platforma müasir istehlakçının davranışını çox yaxşı anlayır: “İnsanlar həm sərfəli qiymət, həm də rahatlıq istəyirlər. Bu platformalar isə həmin iki tələbi rəqəmsal mühitdə birləşdirir. Lakin istehlakçı davranışında mühüm dəyişiklik baş verir: insanlar getdikcə yalnız qiymətə deyil, məhsulun yaratdığı ümumi dəyərə diqqət yetirirlər. Təbii ki, ucuzluq alıcını platformaya gətirə bilər, amma onu platformada saxlayan əsas amillərdən biri etibardır. Alıcı bir dəfə keyfiyyətsiz məhsulla qarşılaşdıqda növbəti sifarişində daha ehtiyatlı olur. Əksinə, yaxşı məhsul və müsbət alış-veriş təcrübəsi müştərinin həmin platformaya yenidən qayıtmasına səbəb olur.

Bu baxımdan Trendyolun daha böyük üstünlüyü qiymət deyil, istehlakçıda formalaşdırdığı seçim və etibar hissidir”.

Temunun aşağı qiymət strategiyasının güclü olduğunu vurğulayan ekspert qeyd edib ki, uzunmüddətli müştəri münasibətləri baxımından yalnız ucuzluq kifayət etmir: “Məhsulun keyfiyyəti, satıcıya etibar, məhsul haqqında düzgün məlumat və alıcının göz-

## Son seçim istehlakçınındır...

ləntisinin qarşılanması da böyük rol oynayır. Ona görə bu iki platformanı belə xarakterizə edərdim: Temu alış-verişə qiymətlə başlayır, Trendyol isə alış-verişdə dəyəri ön plana çıxarır. Əlbəttə, son seçim yenə istehlakçınındır. Bəzən 5 manatlıq məhsul kifayət edir. Bəzən isə 15 manat artıq ödəmək daha ağıllı investisiyadır. Çünki alış-verişdə əsl qənaət ən az pulu xərcləmək deyil, verdiyin pula ən çox dəyəri əldə etməkdir. Məhz bu meyarla yanaşdıqda, Trendyol və Temu arasında tərəzi keyfiyyət tərəfinə əyilir”.

***Yeganə BAYRAMOVA***

# “Formula 1”: Bakı Bulvarında əyləncə zonası fəaliyyətə başlayır

Bakıda keçiriləcək Azərbaycan Qran-prisi yalnız trekdəki sürət və mübarizə ilə məhdudlaşmır.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən verilən məlumata görə, bu il də “Formula 1” yarış həyəcanını trekdən kənara daşıyacaq.

Azarkeşləri konsertlər, pilotlarla görüşlər, interaktiv əyləncələr və zəngin proqram gözləyir. Bütün bunlar ölkənin əsas idman hadisələrindən birinin ab-havasını daha da rəngarəng edəcək.



Ənənəyə uyğun olaraq, Bakı Bulvarında yenə də Əyləncə zonası fəaliyyət göstərəcək. Bulvarın müxtəlif hissələrində qonaqları rəngarəng əyləncələr, interaktiv fəaliyyətlər və bütün ailə üçün maraqlı proqram gözləyir.

“Formula 1” dünyasına daha yaxından bələd olmaq istəyənlər Fan-zonada yerləşən yarış simulyatorunda özlərini sınaya biləcəklər. F1 yarış simulyatoru iştirakçılara virtual bolidin sükanı arxasına keçərək günün ən sürətli dövrəsi uğrunda mübarizə aparmaq imkanı verəcək.

F1 Pit-Stop yarışı zamanı isə iştirakçılar iki-üç nəfərlik komandalar şəklində pit-stop bacarıqlarını sınayacaqlar. Bolidin təkərlərini ən qısa zamanda dəyişən komandalar final mərhələsində yarışacaqlar. Hər iki fəaliyyətin qaliblərini isə imzalı suvenirlər və paddokda turlar gözləyir.

Digər əyləncə məkanlarında isə “Formula 1”ə fərqli rakursdan nəzər salmaq mümkün olacaq. Azarkeşlər Formula 1-in nümayiş bolidini və FIA Formula 1 dünya çempionatının kubokunu görə biləcəklər.

F1 pilotu ilə selfi (F1 Driver Selfie) fəaliyyətində isə qonaqların virtual şəkildə “Formula 1” pilotları və komanda rəhbərləri ilə foto çəkdirmək imkanı olacaq. F1 DJ podiumu isə Qran-prinin ən rəngarəng anlarından biri olan mükafatlandırma mərasiminin ab-havasını canlandıracaq.

Əyləncə proqramı yalnız “Formula” 1 mövzusu ilə məhdudlaşmayacaq. Fan-zonada ziyarətçilər üçün müxtəlif idman və əyləncə fəaliyyətləri də təşkil olunacaq. Onlardan biri olan “Ninja Çağırışı”nda iştirakçılar dırmanma divarları, balans və kəndir elementlərindən ibarət maneələr zolağını keçərək çeviklik, güc və koordinasiyalarını sınayacaq. Hündürlükdən adrenalini yaşamaq istəyənlər üçün isə Fan-zonada tros vasitəsilə sürətli eniş üçün zip-layn qurulacaq.



Qran-prinin ən kiçik qonaqları üçün də xüsusi proqram hazırlanıb. Uşaq Qran-prisində uşaqlar mini elektrik avtomobillərinin sükanı arxasına keçərək təhlükəsizlik tələblərinə uyğun hazırlanmış xüsusi trekdə yarışa biləcəklər. Uşaq zonasında isə onları tematik akvaqrim və yaradıcılıq üzrə masterklasslar gözləyir. Həmçinin aktiv istirahət üçün müxtəlif batutlar, o cümlədən dəbilqə formasında batut qalası da quraşdırılacaq.

“Formula 1” azarkeşləri üçün əsas tədbirlərdən biri də pilotlarla görüşlər olacaq. Fan-forumlar çərçivəsində pilotlar və komandaların nümayəndələri əsas səhnəyə çıxaraq azarkeşlərin suallarını cavablandıracaq, çempionatın trekdən kənar həyatına dair maraqlı məqamları bölüşəcəklər. Qran-pridən əvvəl pilotların təqdimatı keçiriləcək.

Gün ərzində Qran-pri ərazisində müxtəlif səyyar şoular da nümayiş etdiriləcək. Proqrama milli rəqslər, “Amarok” qrupunun zərb alətləri şousu, Güzgülü rəqqaslar (Mirror Dancers), Güzgülü yarış şousu (Mirror Racing Show), Uçan insanlar (Flying People) və xanımlardan ibarət zərb alətləri şousu (Drum Girls) daxildir.

Fan-zonanın səhnəsində DJ Pancho, Maya Aziz, Nicolas Mun, Nazreen, Tim və Vugarixx, həmçinin Excellent Band və Mardan Band çıxış edəcəklər.

Trekdəki tədbirlər başa çatdıqdan sonra əyləncə proqramı Bakı Kristal Zalında davam edəcək. Cümə axşamı səhnəyə Kalvin Harris, cümə isə Keti Perri çıxacaq. Beləliklə, Qran-prinin ab-havası yarış trekindən kənarda da davam edəcək.

Sentyabrın 24-dən 26-dək Bakıda Qran-pri həyəcanı trekdəki mübarizə ilə məhdudlaşmayacaq. Azarkeşlər üçün təşkil olunan Fan-zona, pilotlarla görüşlər, şoular və konsertlər “Formula 1” həftəsonunun zəngin proqramını tamamlayacaq.

## İtmişdir

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu Quliyev Mehman Ədalət oğluna məxsus DSX №0018520 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4446**
**Sifariş: 1240**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova